www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 sentyabr 2017-ci il Cümə № 190 (6804) Qiyməti 60 qəpik

**Xəbər**

## Qalmaqallı "26" kafesinin icarədarı həbs olundu

yazısı səh.3-də

**Gündəm**

### Yeni dərs ili başladı: ağlayan birincilər, sevinən valideynlər...



Ölkə məktəblərində ilk dərs "Cocuq Mərcanlı-tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olunacaq; DYP əhaliyə müraciət etdi

yazısı səh.10-da

### Bakının qurtuluşunun 99-cu ili - qardaşlığın daşlaşmış rəmzi

yazısı səh.4-də

### Məhərrəmlik 22 sentyabrda başlayır

yazısı səh.3-də

### Ərzaq məhsulları 18 faiz bahalaşıb-rəsmi

yazısı səh.12-də

### Moskvada konfrans: "Bakı "Putin birliyi"nə qoşulsun" təklifi

yazısı səh.3-də

### Eldar Mahmudovla Ziya Məmmədovu nə birləşdirir?

yazısı səh.6-da

### Rusiyada terror xəbərdarlıqları - Azərbaycana da təhlükə...

yazısı səh.8-də

### Lapşin İsraildədir

yazısı səh.6-da

### Müxalifət dirçəlmək istəyir- yeni birlik müzakirələri

yazısı səh.13-də

### Bakıda iranlı tələbə sevdiyi qıza görə özünü öldürdü

yazısı səh.6-da

### Şeyxin qardaşı Çexiyadakı mülklərindən danışdı

yazısı səh.3-də

### Supermarketlərdə çəkiliş qadağası qanunidir, yoxsa...

yazısı səh.12-də

## Azərbaycan neft hasilatında iştirak payını 25%-ə qaldırdı

# "YENİ ƏSRİN MÜQAVİLƏSİ" İMZALANDI- TARİXİ SAZİŞ VƏ NÖVBƏTİ 32 İL ÜÇÜN QARANTİYA

"Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi layihəsinin operatoru yenə BP olacaq; **Prezident İlham Əliyev:** "Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik"; Azərbaycan 1994-cü ildən iki dəfə sərfəli bir sazişin imzalanmasına nail oldu




yazısı səh.9-da

## Bakı və müttəfiqləri üçün kritik 10 gün - gözlər Ərbildə

Türkiyə və İsrailin antaqonist mövqelərdə olduğu kürd referendumu ətrafında vəziyyət təhlükəli məcrada inkişaf edir; "kürd dövləti" ideyası dostları düşmənlərə çevirə bilər - böyük risk

yazısı səh.7-də



*Sərdar Cəlaloğlu:*

### "Qərb 2018 seçkilərində müxalifətin üzərində heç bir plan qurmur"

yazısı səh.5-də



Nəvruzəli Orucov

### Prokuror işdən qovulan general oğluna gələn həftə cəza istəyəcək

yazısı səh.6-da



İkram Kərimov

### Hakim bank ombudsmanı oldu-problemli kreditlərə o baxacaq

yazısı səh.10-da



## BP-nin baş icraçı direktoruna “Dostluq” ordeni verildi

**Prezident İlham Əliyev sentyabrın 14-də BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb. Görüşdə Bakıda imzalanan sazişin önəmi vurğulanıb, yeni əsrin müqaviləsinin ikitərəfli əməkdaşlıqda mühüm əhəmiyyət daşıdığı bildirilib. Qeyd olunub ki, Azərbaycanla BP şirkəti arasında uzun illərdir davam edən səmərəli əməkdaşlıq qarşılıqlı etimada söykənir.**

Söhbət zamanı ölkəmizin müəllifi olduğu irimiqyaslı enerji layihələrinin reallaşdırılmasında BP-nin fəal tərəfdaş kimi çıxış etdiyi vurğulanıb.

Prezident İlham Əliyev Azərbaycanla BP şirkəti arasında səmərəli əməkdaşlığın inkişafındakı xidmətlərinə görə Robert Dadlinin Azərbaycan Respublikasının “Dostluq” ordeni ilə təltif olunduğunu bildirib və ordeni ona təqdim edib.

## Məscidlər imamlara verilir

**Azərbaycanda məscidlərdə axundluğun ləğv edilməsi, yalnız imamlıq institutunun saxlanılması təklif edilib.**

APA-nın məlumatına görə, Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Məhərrəm ayı münasibətilə keçirilən tədbirdə bir qrup dindarın təklifini Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da dəstəkləyib. M. Qurbanlı bildirib ki, məscidlərdə vahid sistemə keçməyin vaxtı çatıb.

Təklifə Şeyxülislam Hacı Allahşükür Paşazadə da müsbət yanaşıb, məsələyə baxılmasının mümkünlüyünü qeyd edib.

## Şeyx üstüörtülü danışdı

**“Mənim heç nəyə ehtiyacım yoxdur və heç kimlə nəyəsə ehtiyac görmürəm”. APA-nın məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə Məhərrəmlik ayının başlanması ilə bağlı keçirilən toplantıda bildirib.**

“Mənim yaxşı insanlara ehtiyacım var. Mən həmişə ulu öndər Heydər Əliyevin tövsiyələrini xatırlayıram. Biz həmişə dövlətə, dövlətçiliyə sadiq adamlar olmuşuq və həmişə də belə adamlara ehtiyacımız olub. Bu gün məni düşündürən budur. Başqa heç nəyə ehtiyacım yoxdur”.

Qeyd edək ki, mətbuatda Allahşükür Paşazadənin Çexiyada biznesinin olması haqda məlumatlar yayılıb.

## “ATƏT-in Minsk Qrupunun yaradılması ən böyük səhvdir”

**“ATƏT-in Minsk Qrupunun yaradılması ən böyük səhvdir”. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu “Moskva-Bakı oxu- Qafqazın yeni geosiyasətinə doğru” adlı beynəlxalq konfransda çıxış edən, Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının üzvü, Bakı Musiqi Akademiyasının rektoru, bəstəkar Fərhad Bədəlbəyli bildirib.**

ATƏT-in Minsk Qrupunun fəaliyyətini tənqid edən F. Bədəlbəyli bu qrupun 25 ildə Dağlıq Qarabağ münaqişənin həlli istiqamətində heç bir iş görmədiyini vurğulayıb: “Mən Dağlıq Qarabağın Azərbaycanlı İcmasının üzvüyəm. 25 ildir ki, həmsədrlərlə görüşürük. Onlar bu müddət ərzində heç bir iş görməyiblər. Ancaq biznes klassda gəlib, beş ulduzlu hotellərdə qalıblar. Yüksək maaş alıblar. Lakin bütün bunların qarşılığında bir addım belə qabağa atılmayıb. Minsk Qrupunun yaradılması çox böyük və dəhşətli səhvdir. Çünki ABŞ və Fransanın münaqişənin həllində öz maraqları var. Onlar bu ölkələrdəki erməni diasporunun maraqlarını təmin edirlər. Əminəm ki, Rusiya, Azərbaycan və Ermənistan birlikdə bu münaqişəni həll edə bilərdilər”.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# AŞ PA məruzəçiləri hüquq müdafiəçiləri ilə görüşəcəkmi?

## Səidə Qocamanlı: “Adımız yoxdursa...”

**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Monitorinq Komitəsinin Azərbaycan üzrə məruzəçiləri Stefan Şennak və Sezar Florin Predanın Azərbaycana səfəri başlayıb. Onlar sentyabrın 14-də prezident İlham Əliyevlə görüşüblər.**



Ekspertlər səfərin müsbət nəticələrinin olacağına inanırlar. Xüsusilə “Turan” agentliyinin rəhbəri Mehman Əliyevin azadlığa buraxılmasının AŞ PA nümayəndələrinin ölkəmizlə bağlı hazırladıqları və gələn ay AŞ PA-nın payız sessiyasında müzakirəyə çıxaracaqları hesabata ciddi təsir edəcəyi bildirilir.

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu məruzəçilərlə görüşlərinin zamanının məlum olmadığını bildirdi: “Ola bilər ki, görüş sentyabrın 15-də olsun. Amma bizə məlumat verilməyib. Onların səfərindən öncə Mehman Əliyevin azad olunması şübhəsiz ki, ölkəmizlə bağlı hazırladıqları hesabata ciddi təsir edəcək. Nə qədər normal hesabat yazsalar, bir o qədər çox siyasi məhbus azad olunacaq. Bizim çalışdığımız odur ki, daha çox insan həbsxanadan çıxsın. Hesabatın ölkəmiz adına müsbət olacağına çox ümid edirəm. İstənilən halda bu səfərin siyasi məhbuslar üçün təsirləri çox olacaq”.

**Hüquq müdafiəçisi Səidə Qocamanlı məruzəçilərin onlarla görüşməmə ehtimallarının olduğunu söylədi:** “Biz həmişə bir həftə, yaxud 10 gün əvvəl görüşə dəvət alırdıq. Amma onlar artıq Azərbaycandadır, görüşlərə də başlayıblar. Bizimlə görüş vaxtı hələ təyin olunmayıb. Əgər orada adımız yoxdursa, bizimlə görüş proqrama salınmayıbsa, bir günün içərisində necə həyata keçirilə bilər? Ola bilər ki, bizimlə yox, başqaları ilə görüşsünlər. Bəlkə də müxtəlif fikirləri, rəyləri eşitmək istəyirlər. Amma bizimlə görüşləri daha məqsədəuyğun olardı. Hər halda, professional hüquq müdafiəçisinin verdiyi məlumat daha düzgün və dolğundur. Mehman bəyin azad olunmasından sonra səfərin baş tutması adımıza müsbət nəticələr gətirəcək. Çünki Mehman bəy sıradan bir jurnalist deyil. O, yeni dövr Azərbaycan jurnalistikasına böyük töhfələr verən insandır. Bu baxımdan, onun azad olunması hesabata yumşaqlıq gətirəcək. Mehman Əliyevdən başqa da məhbəsdə olanlar var ki, onların azadlığa buraxılmasına çalışmalıyıq. Avropada ciddi nüfuzu olan, Qərb üçün iqtisadi partnyor rolunu oynayan bir ölkədə bu cür həbslərə son qoyulmalıdır. ”Mənim kimi düşünməyən həbsdə olsun” fikrindən uzaq durmalıyıq. Nəhayət, demokratik islahatlar aparılmalıdır, buna olduqca böyük ehtiyac var. Bunu tək mən deyil, hamı deyir".

**Cavanşir ABBASLI**

## Ombudsman Aparatından Elmira Süleymanova haqda açıqlama

**Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanovanın səlahiyyət müddəti başa çatıb. 2010-cu il martın 5-də müvəkkil seçilən Elmira Süleymanovanın səlahiyyət müddəti 2017-ci il martın 5-də bitsə də, o, hələ də bu vəzifəni icra edir.**

Ombudsman Aparatının İnformasiya və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Nəcəf Tağıyev modern.az-a bildirib ki, müvəkkilin səlahiyyət müddəti bitməsi ilə bağlı məsələnin əlavə şərhinə ehtiyac yoxdur.

“Bununla bağlı ombudsman Elmira Süleymanova açıqlama verib. Həmin açıqlamada bildirilir ki, müvəkkilin səlahiyyət müddəti yeni müvəkkil seçildikdən sonra bitir”.

Qeyd edək ki, “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında” Qanununa əsasən, müvəkkilin səlahiyyət müddəti bitdiyi gün yeni müvəkkil seçilmədikdə, o, səlahiyyətlərinin icrasını davam etdirir.

Qanunvericiliyə görə, Azərbaycan Respublikasının Prezidenti Milli Məclisə yeni ombudsmanın seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Milli Məclis 15 gün müddətində yeni müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edir.

Bu ilin payızında Milli Məclisdə yeni ombudsmanın seçiləcəyi gözlənilir...



## Britaniyalı nazir “Çelsi”nin 7-0 məğlubiyyətini arzuladı

**Böyük Britaniyanın Avropa və Amerika məsələləri üzrə naziri Alan Dunkan “Çelsi”- “Qarabağ” futbol oyununa münasibət bildirib.**

APA-nın xəbərinə görə, nazir futbol üzrə bilici olmasa da, nəticə ilə artıq tanış olduğunu deyib.

Nazir Azərbaycan komandasına “Çelsi”ni Bakıda 7-0 hesabı ilə məğlubiyyətə uğratmağı arzulayıb: “Düşünürəm ki, Azərbaycan futbolunun keyfiyyəti yüksəlir. Baxmayaraq ki, ”Çelsi”-”Qarabağ" oyununda komandanız məğlub oldu, təcrübəni nəzərə alsaq, bu, pis nəticə deyil. Nəticə getdikcə yaxşılaşacaq".

**O, Britaniyada Tofiq Bəhramovun hörmətlə yad edildiyini bildirib:** “Onun adı Britaniyanın futbol tarixinə yazılıb”.



## Aşıq Ədalət Nəsibov vəfat edib

**Bu barədə Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı məlumat verib. M. Qasımlının sözlərinə görə, görkəmli aşıq dünən 78 yaşında dünyasını dəyişib. Vida mərasimi və aşığın dəfn olunacağı yer hələlik dəqiqləşməyib.**

Qeyd edək ki, aşıq Ədalət uzun müddətdir xəstəlikdən əziyyət çəkirdi.

Aşıq Ədalət 27 yanvar 1939-cu ildə Qazax rayonunda anadan olub.

Saz çalmağı atasından öyrənib, gənc yaşlarından fitri istedadı üzə çıxıb, məclislərə dəvət alıb.

O, “Qaytarma”, “Baş sarıtel”, “Ruhani”, “Yanıq Kərəm” və başqa saz havalarının mahir ifaçısı hesab olunur.

## Bakıda 34 dərəcə isti olacaq

**Sentyabrın 15-də Bakı və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. ETSN-dən verilən məlumata görə, havanın temperaturunun gecə 19-22° isti, gündüz 30-35° isti, Bakıda gecə 20-22°, gündüz 32-34° isti olacağı gözlənilir.**

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək.

Nisbi rütubət gecə 75-85 %, gündüz 50-55 % olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq.

Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 18-23°, gündüz 30-35° isti, dağlarda gecə 13-18°, gündüz 22-27° isti olacağı gözlənilir.

## Daha dörd Nardaran məhbusu azad edildi

**Nardaran hadisələrinə görə həbs edilmiş şəxslərin daha bir qrupu azadlığa buraxılıb.**

Bununla bağlı məhkəmə tərəfindən qərar qəbul edilib.

Qərara əsasən, 2015-ci il noyabrın 26-da Nardaranda keçirilən əməliyyat zamanı saxlanılan 4 nəfər - Vidadi Alxasov, Hüseyn Nəbizadə, Ürfan Nəbizadə və Vasif Əliyev Ədliyyə Nazirliyinin 16 və 17 saylı cəzaçəkmə müəssisələrindən vaxtından əvvəl azadlığa buraxılıblar.

Qeyd edək ki, Nardaran hadisələrinə görə həbs olunmuş 14 nəfər bir neçə gün əvvəl azadlığa buraxılıb.

2015-ci il noyabrın 26-da Nardaranda keçirilən əməliyyat zamanı 2 polis əməkdaşı, 4 kənd sakini ölüb, bir neçə nəfər yaralanıb. Əməliyyat nəticəsində yüzdən çox adam saxlanılıb. Onların bir hissəsi azadlığa buraxılıb, bəzilərinin isə barəsində məhkəmə hökmü çıxarılıb.

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

**Moskvada, "President-hotel"də "Moskva-Bakı oxu: Qafqazda yeni geosiyasətə doğru" mövzusunda konfrans öz işinə başlayıb. Virtualaz.org xəbər verir ki, konfransda Rusiya Dövlət Dumasının deputatları, Azərbaycan Milli Məclisinin deputatları, Rusiyanın və Azərbaycanın elmi-siyasi dairələrinin nümayəndələri, ekspertlər iştirak edir. Konfransın məqsədi Rusiya-Azərbaycan münasibətlərinin indiki səviyyəsini və inkişaf perspektivlərini müzakirə etməkdir.**

# Moskvada konfrans: ermənilər 5 rayonu boşaltsın, Bakı "Putin birliyi"nə qoşulsun

## Rusiya paytaxtında "Moskva-Bakı oxu: Qafqazda yeni geosiyasətə doğru" mövzusunda keçirilən konfransda ilginc müzakirələr

Konfransı giriş sözü ilə rusiyalı ideoloq **Aleksandr Duqin** açıb: "Konfransda üç əsas tezis var. Birincisi bu gün Moskva-Bakı oxundan danışmaq ona görə vacibdir ki, Azərbaycan əvvəlki Azərbaycan deyil. Böyük uğurlar əldə edib, sürətlə inkişaf edən ölkədir. Oturuşmuş, suveren, güc toplayan dövlətdir. İkincisi, İlham Əliyevin siyasətidir. Hansı ki, son onillikdə çox böyük nəticələr verir. Əvvəllər bizim ölkələrimiz arasında sərin kimi görünən münasibətlər bu gün Rusiya-Azərbaycan strateji tərəfdaşlığına çevrilib. Prezidentlərin şəxsi münasibətləri burada böyük rol oynayır"

**Duqin deyib ki, Qarabağ münaqişəsi Moskva-Bakı geosiyasi oxunun möhkəmlənməsinə mane olur:** "Lakin Rusiya bu münaqişədə vasitəçi kimi çıxış edir və biz onun yenidən alovlanmasından qaçmağa çalışırıq. Lakin bizi bu gün status-kvo da qane etmir. Və mənə elə gəlir ki, indiki status-kvo heç münaqişə tərəflərinin özlərini də qane etmir".

**Politoloq qeyd edib ki, Ermənistan Qarabağı nəzarətdə saxlayır, lakin dünya ictimaiyyəti kimi Rusiya da Azərbaycanın ərazi bütövlüyünü tanıyır:** "Problemin güc yolu ilə həlli yoxdur. Lakin biz indi elə məqama gəlib çatmışıq ki, münaqişənin həllində irəli getmək lazımdır".

**A.Duqin əmindir ki, Azərbaycan ciddi şəkildə güclənir, möhkəmlənir. Və regionda qüvvələr balansı dəyişir:** "Lakin bizim Azərbaycanla dostluğumuz Ermənistana qarşı deyil, bu, belə qəbul edilə bilməz. Yaxud əksinə. Münaqişənin həlli yolu nədir? Ermənistan şübhəsiz ki, işğal edilmiş rayonlardan 5-ni Azərbaycana qaytarmalıdır. Təkrar edirəm ki, bizə irəli getmək lazımdır".

Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev deyib ki, bu gün Rusiyanın bir sıra ölkələrlə münasibətləri sınaqdan keçdiyi bir vaxtda, Azərbaycanla olan münasibətlər müxtəlif sahələrdə inkişaf edir. Onun sözlərinə görə, Rusiya ilə Azərbaycan arasında azad ticarət rejimi mövcuddur.

D.Savelyev qeyd edib ki, 25 il ərzində Azərbaycan regionda liderlik mövqeyinə yüksəlib, eləcə də əlverişli coğrafi vəziyyətini fəal şəkildə istifadə edir.



**Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər komitəsinin sədri Andrey Klimov isə Qarabağ məsələsində Rusiyanın mövqeyindən də danışıb:** "Rusiya nə prokuror, nə vəkil deyil. Və biz ümid edirik ki, tərəflər özləri kompromis həlli tapacaqlar. Bizim üçün ən başlıcası Rusiyanın strateji tərəfdaşları olan ölkələrin xarici və daxili siyasətlərini özlərinin formalaşdırılmasıdır. Onlara xarici dövlətlərin təsiri məhdud olmalıdır. Rusiya rəngli inqilablarla mübarizə üçün hər şeyi edir və xalqların iradəsinin sındırılmasına imkan verməyəcək".

Senator "Moskva-Bakı oxu" formatının genişləndirilməsinə və Azərbaycan paytaxtında da belə konfransın keçirilməsinə çağırıb.

**Rusiya Kommunist Partiyasının başçısı Gennadi Züqanov deyib ki, Rusiya üçün tarixi dostlarla strateji münasibəti möhkəmləndirmək çox əhəmiyyətlidir:** "Bu planda Azərbaycan xüsusi rol oynayır".

**Siyasətçi qeyd edib ki, dünyanın onlarla şəhərində olub, ancaq Bakıda gördükləri onu əməlli-başlı təəccübləndirib.**

"Bir müddət əvvəl heç nə belə deyildi. Tamamilə təmiz və qulluq göstərilən şəhər. Onlardan şox şey öyrənmək lazımdır. Ata və oğul Əliyevlər bütün neft yataqlarını və gəlirlərini birləşdirərək Dövlət Neft Fondu yaratdılar, hansı ki, gəlirləri sosial ehtiyaclara yönəldir və respublikada birliyin möhkəmləndirilməsinə xidmət edir", - deyə Züqanov əlavə edib.

Kommunistlərin lideri xarici siyasətdəki vəziyyət haqqında danışarkən ABŞ-ı "narıncı inqilablar" vasitəsilə ölkələrin stabilliyini pozmaq cəhdlərində ittiham edib, inqilabların özünü isə cüzam adlandırıb.

Züqanov deyib ki, Rusiya ilə sıx, qarşılıqlı əlaqələr olmadan Qafqazda sülh və əmin-amanlıq olacağını düşünmür.

**Züqanov həmçinin Ermənistanda anti-Rusiya meyllərinin inkişafına və NATO-ya inteqrasiya etmək istəyinə də münasibət bildirib:** "Rusiyadan kənarlaşan bütün yerlərdə vəziyyət pisləşir. Ermənistan və erməni xalqı bunu hamıdan yaxşı bilir. Bu güclərə Ermənistanda ayaq açmağa imkan vermək lazım deyil. Biz onlara ayaq açmağa imkan verməyəcəyik".

**Milli Məclisin komitə sədri Əli Hüseynli konfransındakı çıxışında əsas diaspora təşkilatının bağlanması ilə əlaqədar qayğısını dilə gətirib:** "Bizim üçün xalqlarımızın ünsiyyəti çox vacibdir - o, var, lakin Ümumrusiya Azərbaycan Konqresinin qapadılması problemi Azərbaycan hökumətini narahat edir. ÜAK-ın əsasını ölkələrimizin ümummilli liderləri Heydər Əliyev və Vladimir Putin qoyublar. Ümid edirik ki, Rusiya Ali Məhkəməsi ədalətli qərar verəcək və ÜAK fəaliyyətini davam etdirəcək".

Azərbaycan Rus icmasının rəhbəri Mixail Zabelin çıxışında bildirib ki, hazırda Azərbaycanda 120 min rus millətindən olan vətəndaş yaşayır. Deputatın sözlərinə görə, Azərbaycanda ən çoxsaylı və güclü rus diasporu mövcuddur. Tarixə müraciət edən M.Zabelin qeyd edib ki, Rusiya və Azərbaycan möhkəm strateji münasibətlər quraraq, kəskin məsələləri yoluna qoya biliblər.

M.Zabelin vurğulayıb ki, Heydər və İlham Əliyevlərin sayəsində Azərbaycanda rus dili qorunur və sürətlə inkişaf edir.

**M.Zabelin xatırlayıb ki, 1994-cü ildə Heydər Əliyev rus icmasını toplayaraq, Azərbaycanı tərk etməməyə çağırıb:** "Mənə MDB-də ikinci bir ölkə göstərin ki, parlamentdə və Prezident Administrasiyasında rusla işləyir".

**Dövlət Dumasında Kommunist Partiyası fraksiyasının üzvü Leonid Kalaşnikov rus dilinin inkişafı baxımından Azərbaycanı daima nümunə göstərdiyini vurğulayıb:** "Azərbaycanın vitse-prezidenti Mehriban Əliyevanın bu məsələdə səyləri var. Məsələn, mən bu yaxınlarda Bakının mərkəzində açılışında onun da iştirak etdiyi və yardım göstərdiyi məktəbdə oldum. Bakıda belə məktəblərin sayı 400-ə yaxındır. Bu barədə burada çox az adam danışır. Lakin qeyd etmək lazımdır ki, Azərbaycanda rus dilində danışanların sayı əksər MDB ölkələrindəkindən çoxdur".

**Kalaşnikov konfransda onu da qeyd edib ki, Avrasiya layihələri çərçivəsində əməkdaşlığı inkişaf etdirmək lazımdır:** "Əlbəttə, bəzi Avrasiya strukturlarında Azərbaycanın olmamasının yeri açıq görünür. Ancaq bu, əməkdaşlığa mane olmur".

# Qalmaqallı "26" kafesinin icarədarı həbs olundu




**Bir neçə gün əvvəl fəaliyyəti dayandırılmış "26" kafesinin icarədarı həbs olunub. APA-nın məlumatına görə, Səbayel Rayon Məhkəməsinin qərarı ilə kafenin icarədarı Ramin Məmmədov 20, kafenin digər işçisi Həmid Əfəndiyev isə 25 sutka inzibati qaydada həbs ediliblər.**

Qeyd edək ki, sentyabrın 8-də Bakının Səbayel rayonu ərazisində, "Sahil bağı" (keçmiş "26 Bakı Komissarı" bağı) yaxınlığında, Xaqani küçəsində yerləşən "26" - "Twenty six" adlı kafe Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun iştirakı ilə bağlanıb.

H. Abutalıbov həmin gün jurnalistlərə açıqlamasında bildirib ki, Bakının mərkəzində "26" adlı kafenin açılması yolverilməzdir: "Azərbaycanlıların soyqırımını təşkil edən qatillərin havadarları təəssüf ki, bu gün də yaşayırlar. Bunun nəticəsidir ki, Yazıçılar İttifaqının binasının bir hissəsi icarəyə götürüb, "26" sözünü nəinki Azərbaycan, hətta ingilis dilində də yazmağa cürət ediblər. Qoy burada yaşayan erməni havadarları da başa düşsün ki, nə qədər Azərbaycan xalqı var, erməni daşnaklarına Azərbaycanda yer yoxdur".

H. Abutalıbov obyektin icarədarları və havadarlarının qanuna müvafiq olaraq cinayət məsuliyyətinə cəlb olunacaqlarını da deyib.

# Şeyxin qardaşı Çexiyadakı mülklərindən danışdı

## Cavanşir Paşazadə: "Kişinin var-dövləti olar də..."

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin Çexiyada özünə mülk alıb, böyük biznes qurması barədə məlumatlar geniş əks-səda doğurub.**



Cavanşir Paşazadə

Bildirilib ki, şeyxülislamın kurort cənnəti hesab olunan Karlovı Varıda biznesi var. Həmin məlumatlardan birində fotolar, Çexiyanın müvafiq qurumlarının reyestr məlumatları təqdim olunur.

**Sitat:** "Marketa Şpişakova adlı bu çex qadın şeyxülislam Allahşükür Paşazadənin şərikidir, 36 yaşı var. İxtisasca həkimdir, heç bir sərmayə qoymadan Allahşükür Paşazadənin və Milli Məclisin deputatı Cavanşir Paşazadənin Çexiyada, Karlovı Varıda açdığı "Aynur KV" şirkətinin ortağı olub. Qadının valideynləri də 3 şirkətə sahibdirlər.

"Aynur KV" qrupu avtomobillərin lizingi və kirayəsi, daşınmaz əmlak alqı-satqısı ilə məşğuldur. MMC kimi Skroupova, 36001, Karlovy Vary ünvanında qeydiyyatdan keçib. Aylıq gəliri 1 milyon kron göstərilir (təxminən 100 min manat)".

**Məsələ ilə bağlı Şeyxülislam Hacı Allahşükür Paşazadənin qardaşı, deputat Cavanşir Paşazadə modern.az-a açıqlama verib. Cavanşir Paşazadə bildirib ki, bu haqda 7-8 ildir ki, məlumat yayılır:** "Neçə dəfələrlə bu barədə nəsə tapıblar, yazıblar və mən də cavab vermişəm. Zarafatca da demişəm ki, olanda nə olar ki? Mən istərdim ki, olsun, kaş olaydı. Əfsuslar olsun ki, yoxdu. Bunların hamısı yalan mlumatlardır. Qoy yazsınlar da".

**"Əgər sizin və qardaşınızın haqqında yayılan bu məlumatlar doğru deyilsə, onda məhkəməyə müraciət edəcəksinizmi" sualına Cavanşir Paşazadə belə cavab verib:**

"Mənim üçün maraqlı deyil. Yazsınlar da. Onlar bizi söyməyib, döyməyib. Kişinin var-dövləti olar da. Mən deyirəm ki, yoxdur. Yayılan məlumatlar yalandır".

# Məhərrəmlik 22 sentyabrda başlayır

**Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası Məhərrəm ayının başlanması ilə bağlı fətva verib.**

Fətvada deyilir ki, Hicri-qəməri təqvimi ilə 1438-ci il başa çatır. Yeni Hicri 1439-cu ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə 2017-ci il sentyabrın 22-nə təsadüf edir. Bu il Aşura günü oktyabrın 1-nə təsadüf edəcək".

Qeyd olunur ki, müqəddəs aylardan olan Məhərrəm ayı Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibə və münaqişələrin qadağan edildiyi aylardandır:

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017



# Bakının qurtuluşunun 99-cu ili - qardaşlığın daşlaşmış rəmzi

## Azərbaycanda Nuru Paşaya biganəlik varmı? **Sabir Rüstəmxanlı:** "Xalqın özü yığışıb Nuru Paşaya abidə ucalda bilər..."

**Bu gün Bakının işğalçı erməni-bolşevik qüvvələrindən azad edildiyi gündür. 99 il öncənin bu günü Azərbaycan və türk əsgərləri paytaxtımızı azad edərək, tariximizə qızıl hərflərlə həkk olunan bir hadisəyə imza atdılar.**

1918-ci il 28 mayda Azərbaycan Xalq Cümhuriyyəti elan olunsa da, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar erməni-bolşevik işğalında idi. O səbəbdən Cümhuriyyətimizin paytaxtı qədim Gəncə idi. O vaxt 1-ci Dünya müharibəsində ağır məğlubiyyətə düçar olan və daxilindəki problemlərin həllinə başı qarışan Osmanlı Türkiyəsi Azərbaycanı da unutmadı. Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin müraciəti ilə Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə hərbi qüvvələr Azərbaycana göndərildi, Qafqaz İslam Ordusu yaradıldı. Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə baxmayaraq qardaş köməyini əsirgəməyən, ölkəmizi tək qoymayan Türkiyə 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Bu döyüşlərdə Osmanlı qoşunları 1130 nəfər şəhid verdi. Həmin şəhidlərin şərəfinə Şəhidlər Xiyabanının yanında abidə də ucaldılıb. Azərbaycanda hər il sentyabrın 15-də bu hadisə qeyd edilir, şəhid əsgərlərin xatirəsi anılır.

Amma bununla belə, Nuru Paşanın xatirəsinə Bakıda heykəl ucaldılmaması daim qınanır və sərt tənqidlərə məruz qalır. Hər ilin bu günlərində bu məsələ daha da aktuallaşır. İctimaiyyətin tanınmış nümayəndələri dəfələrlə bununla bağlı aidiyyəti qurumlara müraciət etsələr də, mətbuat səhifələrində açıqlamalar versələr də, hələ ki məsələ öz həllini tapmır. Müzakirələrdə ən çox tənqidlərə məruz qalan şəxs də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovdur. Keçmiş "26-lar" bağını Nuru Paşanın adına verib burada ona heykəl ucaltmaqla bağlı təklif də öz aktuallığını saxlayır.



**VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı bildirdi ki, Nuru Paşaya heykəl ucaldılmaması ona qarşı xalqın biganəliyi deyil:** "Azərbaycanda Nuru Paşanın adı son dərəcə əzizdir, xatirəsi əziz tutulur. Rəsmi dairələrin onun abidəsi məsələsinə biganəliyi Nuru Paşanın abidəsinin, xatirəsinin yüksək tutulmaması, unudulması deyil. Xalqın münasibəti abidə, heykəllərlə ölçülməz. Nuru Paşanın adı əfsanəvi addır. Ölkəmizdə hər il onun adı yüksək minnətdarlıqla xatırlanır. Yüzlərlə, minlərlə ailələr var ki, Nuru Paşa onların ailələrini zamanında xilas edib, qırğınların qarşısını alıb. Xalqımız bunları unutmayıb. Azərbaycanda Nuru Paşaya soyuq münasibətdən danışmağa dəyməz. Nuru Paşanın abidəsi ucaldılsa, gərək 11-ci Qızıl Ordunun yerində ucaldılsın, yaxud türk əsgərlərinin şərəfinə ucaldılan abidənin yanında qoyulsun. Bakının ən görkəmli yerlərinin birində bu abidə ucaldılmalıdır. Onun abidəsi üçün Bakıda onlarla gözəl yer tapmaq olar. Son günlərdə fəaliyyəti dayanan kafenin adının dəyişdirilməsi və Nuru Paşanın adının kafeyə verilməsi, eləcə də, heykəlinin qarşısında ucaldılması fikirləri meydana çıxıb. Bu, heç cür olmaz axı. Əvvəla, bir daha o məsələyə qısa da olsa toxunmaq istəyirəm ki, o kafenin adı "26-lar" deyil, sadəcə, "26"dır. Dünyanın bir çox yerlərində bu adda kafelər var. Yəni bunun 26 Bakı komissarına heç bir aidiyyəti yoxdur. Bunu ermənilərlə bağlamaq düzgün deyil. Yazıçılar İttifaqının ermənilərin mövqeyini qoruması, adlarını yaşatması kimi görüntüsü yaratmaq bütün yazıçılara və Yazıçılar Birliyinə sayğısızlıqdır. Bakıda ermənilərə himayədarlıq edən, adlarını saxlayan, onlarla ticarət edən nə qədər istəyirsiniz kifayət qədər imkanı yüksək olan şəxslər və vəzifə sahibləri tapmaq olar. Bu məsələnin Yazıçılar İttifaqına heç bir aidiyyəti yoxdur".

**S.Rüstəmxanlı Nuru Paşanın abidəsinin ucaldılması və bu tipli məsələlərin çoxdan müzakirə edildiyini də qeyd etdi:** "Bu işlə məşğul olan şəxslər təəssüf ki, məsələyə biganə yanaşırlar. Əslinə qalsa, xalqın özü yığışıb Nuru Paşaya abidə ucalda bilər. Ona borclu olan Bakı və Bakı kəndlərindən çoxsaylı adamlar var. Bir vaxtlar Bakı milyonçuları deyirdilər ki, Nuru Paşaya namus borcumuz var. Onun ingilislərin həbsindən qurtulmasına Bakı milyonçuları kömək etmişdilər. İndi onlar olsaydılar, bu məsələni asanlıqla həll edərdilər. Təəssüflər olsun ki, indi insanlarda o imkanlar yoxdur. Milli burjuaziya demək olar mövcud deyil. Belə bir şəraitdə hər şey dövlətin öhdəsinə qalır. Düşünmürəm ki, Nuru Paşanın ətrafında gedən söz-söhbətlər nəticəsiz qalacaq. Məncə, xalqın tələbi, nəhayət, nəzərə alınacaq, Bakıda onun adına layiq bir abidə ucaldılacaq. Xalq tərəfindən belə təşəbbüs olarsa, hökumətdən maneçilik yaradılmaz. Dövlət xalqın dövlətidir. Əgər xalq istəyində, iradəsində ardıcıldırsa, ona heç bir hökumət mane olmaz".

**Xalq şairi Türkiyədə də Nuru Paşaya biganə münasibətin olduğu barədə fikirlərə münasibət bildirdi:** "Türkiyənin həmin dövr tarixi kifayət gərgin idi. Osmanlının özü neçə cəbhədə mübarizə aparırdı. Hətta o zaman Ənvər Paşa tərəfindən Azərbaycana göndərilən bu yardım Türkiyədə normal qəbul olunmur, hesab edirdilər ki, belə ağır şəraitdə Azərbaycana ordu göndərilməsi düzgün deyil. Ona görə İstanbula qayıdanda hərbi nazir onu həbs etmişdi. Təsəvvür edin ki, o zaman türk ordusunun Azərbaycana gəlişini yalnız müəyyən mütəxəssislər bilirlər. Onlar da daha çox Azərbaycanla bağlıdırlar. Türkiyə tarixində bu hadisə bizdəki kimi qabardılmır. Əslində bizim üçün daha vacib hadisə idi. Hər halda, Türkiyədə Azərbaycanla bağlı şəxslər, dərnəklər bu hadisəni bilir, sentyabrın 15-i bununla bağlı tədbirlər keçirirlər. Bu arada məlumat verim ki, İstanbuldakı dərnəklərimizdən biri hər il müəyyən heyətlə ölkəmizə gəlir, Qubadakı Soyqırım Muzeyini ziyarət edir, şəhid olan əsgərləri yad edirlər, mətbuat konfransı keçirirlər. Bu il də Bakıda Beynəlxalq Mətbuat Mərkəzində konfrans keçirəcəklər".

❑ **Cavanşir ABBASLI**

---

**Azərbaycanın yeni tarixində iki möhtəşəm təqvim var. Onların hər ikisi milli istiqlalımız və müstəqilliyimizlə assosiasiya olunur. Və xatırlanan kimi də çöhrələrə bir təbəssüm, gözlərə işıq, qəlblərə iftixar və fərəh hissi qonur. Onlardan biri 28 May Respublika Günüdürsə, digəri əlbəttə ki, 15 sentyabrdır - Nuru Paşanın başçılıq elədiyi Qafqaz İslam Ordusu tərəfindən Bakının bolşevik-daşnak tör-töküntülərindən azad edildiyi gün. Həmin möhtəşəm hadisənin 99-cu ildönümünü yaşayırıq.**

**Zahid SƏFƏROĞLU**



# "26-lar" və Nuru Paşa

15 sentyabr - mübaliğəsiz-filansız, Bakının yeni doğum günü, bu qədim şəhərimizin Azərbaycan xalqına təzədən qayıdışı günüdür. Bu günü xalq həmişə öz xilaskarlarına ehtiram və sayğı ilə anır və anacaq.

15 sentyabr həm də bir şükranlıq günüdür. Məhz həmin tarixdə paytaxt Bakıya, obrazlı desək, bütün zamanlar üçün keçərli olan "kupça" verilib və bu kupça həmişəlik bizdədir. Hətta sovet dönəmində də onu bizdən ala bilməyiblər.

Bu gün Bakının Azərbaycan-türk şəhəri, müstəqil Azərbaycanın paytaxtı kimi qalmasına görə biz ən əvvəl Nuru Paşa və Qafqaz İslam Ordusuna minnətdar olmalıyıq. Təsadüfi deyil ki, istiqlalımızın banisi böyük Məmmədəmin Rəsulzadə həmişə 15 sentyabrın 28 May qədər önəmli olduğunu deyirdi...

Cümhuriyyət, Rəsulzadə və silahdaşları, Nuru Paşa əlbəttə ki, bizim üçün dəyərlərdir. Dəyərlərimizin hamısına sahib çıxmalıyıq - istisnasız olaraq. Əfsuslar olsun ki, bu böyük kişinin - Nuru Paşanın haqqını xalq olaraq hələ tam verə bilməmişik. Halbuki bundan ötrü çox şey tələb olunmur - heykəl və adına normal bir prospekt.

Nuru Paşa prospekti. Niyə də olmasın Bakıda?! Əgər paytaxtda dünənədək "26 Bakı komissarı" küçəsi mövcud olubsa, nədən Bakını azad eləmiş və ona faktiki, yeni "yaş kağızı" vermiş türk komandanına bu günədək abidə ucaldılmasın?

Bu yanlış bir an öncə aradan qaldırıla bilməzmi? Gələn il həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm də Bakının azad edilməsi və milli ordu qurulmasının 100 illiyi qeyd olunacaq. Bir əsr! Heç olmasa, həmin tarixədək Cümhuriyyətin təşəkkül tapması və ayaq üstə durmasında tarixi xidmətləri olmuş böyük şəxsiyyətlərin və hərbi sərkərdələrin hamısının halallığını alaq.

Belə bir addım gənc nəslin yaddaşında da möhtəşəm iz buraxardı. Unutmayaq ki, Nuru Paşaya münasibət - Cümhuriyyətə, Cümhuriyyət tariximizə münasibətdir. Bu, həmçinin bir testdir - milli keyfiyyəti müəyyən etmək, manqurtları, "5-ci kolon"çuları əsl vətənpərvərlərdən ayırmaq üçün bütün zamanlar üçün keçərli olacaq bir test! Nuru Paşa testi.

Nuru Paşanı sevməmək - istiqlalımızı sevməmək deməK, müstəqilliyimizə şəkk gətirmək, həqarət eləmək deməK. Nuru Paşanı sevməmək - müstəqil dövlətimizin təməlini qazımaq, Azərbaycanı təzədən Rusiyanın boyunduruğuna qaytarmaq istəyi ilə alış-yanmaq deməK. Azərbaycanı sevən Nuru Paşanı da sevər!..

15 sentyabr - Bakının Qurtuluş Gününün bir önəmi də odur ki, bu, iki qardaş ölkənin ortaq hərbi zəfəridir. İnşallah, belə ortaq qələbələr hələ qabaqdadır. Çünki Qarabağ da əsgərlərimizin yolunu gözləyir.

Deməli, 15 sentyabrdan başlayan missiya hələ bitməyib. Hələ yoldayıq. Böyük qələbəyə doğru yolda! Qarabağı da Bakı kimi Azərbaycana qaytaracaq bir yolda! Bu yolda Allah yardımçımız, Nuru Paşa təcrübəsi, 15 sentyabr ortaq təcrübəsi köməyimiz olsun.

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# "Qərb 2018 seçkilərində müxalifətin üzərində heç bir plan qurmur"

## Sərdar Cəlaloğlu: "Rəsul Quliyevə o qədər yanlış informasiyalar verirdilər ki, qorxuya düşdü və bu qorxunun təsiri altında hakimiyyətə gəlmək imkanını əldən verdi"

**ADP sədri Sərdar Cəlaloğlu günün bir sıra aktual suallarını "Yeni Müsavat"a müsahibəsində cavablandırıb. Sərdar Cəlaloğluna ilk sualımız son günlər müxalifət düşərgəsində müzakirə olunan mitinq və bundan ortaya çıxan müxalifətdaxili gərginliklə bağlı oldu.**

***- Müxalifətin birgə mitinqinin keçirilməsi məsələsi Müsavat Partiyasında gündəmə gətirilib. Müsavat Məclisinin üzvləri tərəfindən təklif irəli sürülüb ki, mitinqin təşkilatçısı, məsələn, NİDA Vətəndaş Hərəkatı olsun, Müsavat, AXCP və digər partiyalar isə mitinqdə iştirak etsinlər. Müsavatçılar tərəfindən irəli sürülən bu təklif Milli Şura tərəfindən dərhal vuruldu. Milli Şura özünün mitinq keçirəcəyini bəyan etdi və mitinqin tarixini təyin etmək üçün xalqa sosial şəbəkədə müraciət ünvanlandı. Siz tərəflərdən hansının mövqeyinin doğru olduğunu düşünürsünüz?***

- Əvvəla, onu deyim ki, iqtidar illərdir müxalifətin mövcudluğunu xalqa unutdurmaq istəyir. Eyni zamanda çalışırlar ki, müxalifət partiyaları kiçik QHT-lər şəklinə düşsün. İndi müxalifət düşərgəsindən irəli sürülən təkliflər də dolayısı ilə hakimiyyətin bu istəyi ilə üst-üstə düşür.

Milli Şuranın xalqa mitinqin vaxtını təyin etməklə bağlı müraciəti də, Müsavatın mitinqin təşkilatçılığını hansısa QHT-nin həyata keçirməsi barədə ideyası da bu baxımdan zərərlidir. İndiki vəziyyətdə Milli Şura neçə dəfə mitinq keçirsə belə, uğursuzluğa düçar olacaq. Milli Şuranın heç bir kənar siyasi partiya ilə mitinq keçirməməsi, heç bir qüvvə ilə siyasi əməkdaşlıq etməməsi, özündən başqa heç kimi müxalifət saymaması əslində müxalifətin bir araya gəlməsində ən ciddi problemlərdən biridir. Milli Şuranın rəhbərliyi bu mövqeyini açıq şəkildə ifadə edib. Bunu Müsavat Partiyası dolayısı, Milli Şura-AXCP isə açıq ifadə eləyib. Onlar deyirlər ki, bizdən başqa müxalifət yoxdur. İndi Müsavat Partiyasından irəli sürülən təklifdən belə çıxır ki, partiyalar hansısa QHT-nin ətrafında birləşməlidir. Siyasi partiyaların QHT ətrafında birləşməsi anormal haldır. Məni maraqlandıran odur ki, nə üçün Müsavat və AXCP müxalifətin adı altında və müxalifətin birgə mitinqlərinin keçirilməsinə razı deyillər. İndiyədəki çoxsaylı təcrübələrdən də qeyri-siyasi şəxslərin və təşkilatların ətrafında yaradılan birliklərin böyük uğursuzluğa düçar olduğunu görmüşük. Mən hesab edirəm ki, əgər kütləvi aksiyalar keçiriləcəksə, bu, müxalifətin ümumi aksiyası kimi olmalı, bütün müxalif partiyalar orada iştirak etməlidir. Əgər belə olmayacaqsa, heç bir ictimai təşkilatın adı altında siyasi müxalifətin aksiyalar keçirməsi düzgün olmayacaq.

Kütləvi aksiyaların keçirilməsi sosial sifarişin olmasını tələb edir. Əgər bu gün biz kortəbii kiçik çaplı aksiyaların keçirilməsini görmürüksə, deməli, biz təşkil olunmuş böyük mitinqlər keçirə bilmərik. Çünki sosial sifariş yoxdur. Sosial sifariş yoxdursa, buna uyğun olmayan hansı təklif irəli sürülsə, xalq tərəfindən qəbul olunmayacaq, bir müddət əvvəl keçirilən son mitinqlərdə olduğu kimi 1000 nəfər adam qatılacaq və sən də mitinq keçirmək qərarından imtina edəcəksən.

***- Prezident seçkilərinə 1 il qalıb. Seçki ilində müxalifətin birliyi, seçkidə vahid namizədlə iştirakı mümkün olacaqmı?***

- Bu, asılı olacaq bizim seçkilərdə hansı prinsiplə iştirak etməyimizdən. Seçkilərdə iki prinsiplə iştirak edilir. Birincisi, nəyin bahasına olur-olsun seçkidə iştirak. İkinci prinsip isə seçkidə iştirak xatirinə iştirak. Əgər müxalifət nəyin bahasına olur-olsun seçkidə iştirak etmək prinsipi ilə seçkiyə qoşulacaqsa, o zaman çox ciddi şəkildə kimin liderliyi altında seçkiyə getmək məsələsi müzakirə olunmalıdır. Həm liderin şəxsi reputasiyası çox yüksək olmalıdır, həm xüsusi resurslar olmalıdır. Əgər müxalifət seçkilərdə iştirak xatirinə seçkiyə qatılmaq prinsipi ilə seçkiyə gedəcəksə, o zaman bütün müxalifətin bir lider ətrafında birləşməsinin elə də əhəmiyyəti olmaz. Ona görə də belə vəziyyətdə müxalifətdən 3-4 nəfər tanınmış namizəd çıxmalıdır və seçki kampaniyasının verdiyi imkanlardan istifadə eləyib ölkənin, xalqın problemlərinə diqqəti yönəltməlidir, həll yollarını göstərməlidir. İndiki halda Azərbaycanda indiki müxalif siyasi liderlərdən heç kəs nəyin bahasına olur-olsun prinsipi ilə seçkidə iştirak etməyə nə hazırdır, nə də buna resursların olması və digər məsələlər baxımından əsas var. Ona görə düşünürəm ki, indiki vəziyyət dəyişməsə, müxalifət seçkidə iştirak xatirinə seçkiyə qatılacaq. Belə halda isə müxalifəti bir araya gətirməyə ehtiyac olmayacaq.

***- Sizin dediyiniz birinci prinsip əsas götürüləcəksə, hər kəsin ətrafında birləşəcəyi müxalifət lideri bu gün mövcuddurmu?***

- Bu prinsiplə seçkiyə gedilsə, lider də olacaq.

***- 2018-ci ildə də 2013-cü il seçkiləri zamanı işə salınan ssenarilər mümkündürmü?***

- Hakimiyyət seçkilərdə lider dəyişikliyinə getmək istəsə, 2013-dəkinə bənzər ssenarilər işə salına bilər. Bu ssenariləri xarici güclər hazırlayıb işə salacaqlar. Bu dəfə seçkiqabağı vəziyyət olduqca mürəkkəbdir. Ola bilsin ki, xarici qüvvələr daha radikal ssenarilər işləyə və addımlar ata, hətta 2013-cü ilin Milli Şura oyunundan da radikal bir oyun qura bilərlər.

***- 2013-cü il seçkiləri öncəsi daha çox Rusiyanın önə çıxdığı müşahidə edilirdi,bu dəfə, sizcə, necə olacaq?***

- Lider dəyişikliyi dediyim məsələ Rusiya ilə Qərbi çox ciddi şəkildə üz-üzə gətirə bilər. Belə halda Qərblə Rusiya Azərbaycana bütün təsir mexanizmlərini işə sala bilər. Açıq şəkildə görünür ki, Qərb 2018-ci il seçkilərində müxalifətin üzərində hər hansı plan qurmur.

***- Bu, müxalifətə inamsızlıqdan irəli gəlir?***

- Sadəcə olaraq, Azərbaycandakı indiki status-kvo Qərbin maraqlarına uyğundur. Azərbaycan müxalifətinin durumu elə Qərbin özünün Azərbaycandakı siyasəti ilə bağlı bu vəziyyətə düşdü. Biz Qərblə çox ciddi şəkildə əlaqələr qurmadığımız vaxtlarda indikindən qat-qat güclü idik.

***- Ötən həftə Qərb mediasında Azərbaycanla bağlı ard-arda bir neçə sərt yazıların meydana gəlməsi bəzi müxalifət çevrələrində "Seçki yaxınlaşdıqca Qərbdən hakimiyyətə təzyiqlər artacaq" kimi ümid yaradıb. Sizin dediklərinizdən belə qənaətə gəlmək olur ki, bu ümidlər doğrulmayacaq...***

- Təzyiq iki məqsəd üçün edilir. Məqsədlərdən biri bu olur ki, Azərbaycan iqtidarı Qərbin hansısa maraqlarına uyğun addımlar atsın. Digər məqsəd isə ölkədə siyasi situasiyanı köklü dəyişmək olur. Qərbin indiyə qədər etdiyi heç bir təzyiq situasiyanı demokratiyaya doğru köklü dəyişmək məqsədi güdməyib. Həmişə birinci dediyim məqsəd güdülüb, indi də həmin məqsəd güdülür. Bu baxımdan, mən Qərbin hakimiyyət dəyişikliyi üçün təzyiq edəcəyinə inanmıram. Buna ümid edənlərin də ümidinin doğrulmayacağını düşünürəm.



**"İndiki vəziyyətdə Milli Şura neçə dəfə mitinq keçirsə belə, o mitinq uğursuzluğa düçar olacaq"**

***- İqtidar düşərgəsindəki durumu necə şərh edərdiniz?***

- Hadisələr göstərir ki, qruplararası tarazlaşdırılmış balans siyasətindən birtərəfli siyasi xəttə meyllənmə var. Buna cəhdlər var və bu cəhdlərdən razı olmayanlar da var. Bu proses dərinləşsə, çat böyüyəcək.

***- Eks-spiker Rəsul Quliyev "Yeni Müsavat"a son müsahibəsində Azərbaycanda üzdə olan müxalifət partiyaları liderlərinin cəminin tərəfdarlarından çox sosial bazası olduğunu deyib. Rəsul Quliyev uzun müddət ADP-nin sədri olub və onun ictimai nüfuzunun səviyyəsi barədə, hər halda, siz daha çox məlumatlısınız. Bu gün durum Rəsul Quliyev dediyi kimidir?***

- Əvvəlki illərlə müqayisədə Rəsul müəllimin elektoratında ciddi aşınmalar olub. Rəsul Quliyevin 2005-ci ildəki kimi nəhəng elektoratı bu gün yoxdur. Amma kifayət qədər tərəfdarları var. Rəsul Quliyev real şəkildə Azərbaycana qayıdacağı halda bu elektoratın həqiqətən artacağını gözləmək olar. Amma Rəsul müəllim Saakaşvilidən fərqli olaraq o qədər də qətiyyətli siyasi lider obrazını yarada bilmədi. Ona görə də düşünürəm ki, tərəfdarları çox olsa da Rəsul Quliyev siyasi məqsədlərə çatmaq baxımından Azərbaycan daxilindəki siyasi liderlərdən üstün mövqeyə malik deyil.

***- Rəsul Quliyev və bəzi başqa siyasətçilər Saakaşvilinin Ukraynaya məlum gəlişini şou hesab edir. Bəzi siyasətçilər isə bildirirlər ki, Mixail Saakaşvili qətiyyət nümayiş etdirir və son addımı onun Ukraynada hakimiyyətə gəlməsi üçün atılan uğurlu addımdır. Siz necə hesab edirsiniz?***

- Ukraynada baş verən hadisələr kifayət qədər mürəkkəb prosesdir. Prezident Poroşenko özü inqilabi prosesin nəticəsi olaraq hakimiyyətə gətirilib. Müstəqilliklə demokratiya eyni şey deyil. Çox təəssüf ki, bəzən müstəqillik insanlara demokratiya, azadlıq gətirməyə də bilir. Demokratiya müstəqillik adı altında boğulur. Ukraynada belə bir hal yaşanmağa başlayıb. Saakaşvili Gürcüstanda müstəqillik hərəkatından sonra demokratik hərəkata rəhbərlik edib. Bu gün Ukrayna xalqının da ehtiyac duyduğu məhz demokratiyadır, real demokratik hərəkatdır. Düşünürəm ki, Mixail Saakaşvilinin də arxasında böyük güclər durur. Mixail Saakaşvili nə ukraynalıdır, nə Ukrayna vətəndaşıdır. Buna baxmayaraq, o, Polşanın sərhədlərindən keçir, Ukrayna sərhədinə gəlir və sərhədi keçir, Ukraynanın polisi, sərhəd qoşunu onun qarşısını ala bilmir. Ona görə də belə görünür ki, bu proses-Sakaşvilinin Ukraynaya gəlişi, revanş götürməsi Ukraynada hakimiyyət dəyişikliyinin Qərb tərəfindən dəstəklənən ciddi modellərindən biridir. Hakimiyyətin də Mixail Saakaşviliyə qarşı çox sərt addımlara getməməsinin səbəbi onun arxasında çox böyük güclərin durması ilə bağlıdır. Saakaşvili şübhəsiz ki, qətiyyətli, qorxmaz siyasi liderdir, ancaq o, Ukraynaya şəxsi qəhrəmanlığına arxalanaraq gəlməyib.

***- 2005-ci ildə Rəsul Quliyevə də dediyiniz böyük güclərin dəstəyi olsaydı, onun Azərbaycana gəlməsi mümkün olacaqdı?***

- Onun da arxasında böyük güclər dayansaydı, hakimiyyət ona heç bir şey edə bilməzdi. Etsəydilər belə, atılan addımlar Rəsul Quliyevin xeyrinə, hökumətin isə əleyhinə yönələrdi. Biz o vaxt da Rəsul müəllimə demişdik ki, heç nədən çəkinməsin və gəlsin. Biz siyasətçi olaraq düşünsək ki, ay aman tutula bilərik, öldürülə bilərik onda gərək siyasətlə məşğul olmayaq, evdən çölə çıxmayaq. Gərək siyasətçi başına gələ biləcək bütün hadisələrə hazır olsun. Rəsul Quliyev Saakaşvili kimi qətiyyətli olsaydı, 2005-ci ildə prezidenti olacaqdı. O vaxtkı şərtlər də elə idi ki, beynəlxalq güclər Rəsul Quliyevə dəstək verəcəkdi. Rəsul müəllim qətiyyət nümayiş etdirə bilmədi. Hakimiyyət onun ətrafında müəyyən adamlar yerləşdirmişdi. Həmin adamlar Rəsul Quliyevdə yersiz xof, vahimə yaradırdılar. Deyirdilər ki, Azərbaycana gəlmə, səni öldürəcəklər, işgəncə verəcəklər. Rəsul Quliyevə o qədər yanlış informasiyalar verirdilər ki, qorxuya düşdü və bu qorxunun təsiri altında hakimiyyətə gəlmək imkanını əldən verdi. Bundan sonra bir də o cür imkan yaranıb-yaranmayacağını deyə bilmərəm.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# Lapşin İsraildədir



**Azərbaycan prezidentinin əfv etdiyi blogger Aleksandr Lapşin həbsdən azad olduqdan sonra İsrailə yollanıb.**

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə agentliyə Knessetin deputatı Kseniya Svetlova məlumat verib.

Onun sözlərinə görə, A.Lapşin artıq İsraildədir: "O, Təl-Əvivə Bakıdan birbaşa reyslə yollanıb".

Xatırladaq ki, İsrail, Rusiya və Ukrayna vətəndaşı olan blogger Azərbaycanın müraciəti ilə 2016-cı ilin dekabr ayında Minskdə saxlanılıb. A.Lapşin Bakıdan icazə almadan Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etdiyinə görə "qara siyahı"ya daxil edilib. O, Bakıya ekstradisiya olunduqdan sonra 3 il həbs cəzasına məhkum edilib.

Sentyabrın 11-də prezident İlham Əliyev bloggeri əfv edib.

# Prokuror işdən qovulan general oğluna gələn həftə iş istəyəcək

**Binəqədi Rayon Məhkəməsində xuliqanlıqda təqsirləndirilən Rüstəm Orucovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın xəbərinə görə, hakim Rəşad Əliyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub.

Bildirilib ki, iş üzrə dindirilməmiş bir şahid qalıb, o da səhhəti ilə bağlı məhkəmədə iştirak edə bilmir.

Prokuror çıxış üçün məhkəmədən vaxt istəyib.

Proses sentyabrın 22-də davam etdiriləcək.

Qeyd edək ki, hüquq-mühafizə orqanlarının yaydığı məlumatda bildirilib ki, bu il iyulun 3-də Bakı şəhər sakini Rüstəm Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı, 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatlığına və insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib.

Faktla bağlı Binəqədi Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb.

Xatırladaq ki, Rüstəm Orucov piyadanın ölümünə səbəb olan yol-nəqliyyat hadisəsi törədib, hadisə yerindən qaçdığına üçün 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib.

R. Orucov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə sabiq müavini - Həqiqi hərbi xidmətə çağırış baş idarəsinin keçmiş rəisi, general Novruzəli Orucovun oğludur. N. Orucov hadisədən sonra tutduğu vəzifədən azad edilib.

# Daşkəsəndə ər 27 yaşlı arvadını boğub öldürdü

**Daşkəsəndə qətl hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Bayan kəndində 1984-cü il təvəllüdlü Həsənov Ramil Rafiq oğlu qısqanclıq zəminində həyat yoldaşı, 1990-cı il təvəllüdlü Əzizova Könül Hafiz qızını boğaraq öldürüb.**

Ailənin bir övladı var. Faktla bağlı Daşkəsən Rayon Prokurorluğunda cinayət işi başlanıb, istintaq gedir.

# Bakıda iranlı tələbə sevdiyi qıza görə özünü öldürdü

**Bakıda tələbə intihar edib.**

APA-nın məlumatına görə, hadisə paytaxtın Nəsimi rayonu, Azadlıq prospekti ev 108, mənzil 15 ünvanında qeydə alınıb. Həmin ünvanda kirayədə yaşayan, İran İslam Respublikasının vətəndaşı, 1993-cü il təvəllüdlü Nəzəri Əmir Cəlil oğlu sərxoş vəziyyətdə özünü binanın 4-cü mərtəbəsindən atıb. O, aldığı xəsarətdən hadisə yerindəcə keçinib. Məlumata görə, Nəzəri Əmir Azərbaycan Tibb Universitetinin tələbəsidir. O, intihar etməzdən əvvəl sevdiyi qızla dalaşıb.

**Nəqliyyat Nazirliyi ləğv edilərək Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdiriləndən sonra işsiz qalan Ziya Məmmədov ölkə sərhədlərini aşa bilmir. Sabiq milli təhlükəsizlik naziri, 2015-ci ildə qəfil əməliyyatın sonucu olaraq işsiz qalan Eldar Mahmudovun da eyni vəziyyətdə olması haqda məlumatlar var. Hər iki nazir zamanında hakimiyyət komandasının nüfuzlu üzvlərindən idilər. İndi isə onların hər ikisi işsizdir, rəhbərliyində təmsil olunduqları ölkədə faktiki girova çeviriliblər. Bununla belə, onların aqibətini yaşayan nazirlərin bir çoxunun taleyinə baxanda Ziya Məmmədovla Eldar Mahmudovun durumları o qədər də fəna görünmür.**

# Eldar Mahmudovla Ziya Məmmədovu birləşdirən "halqa" bilindi

## Hər iki nazir iqamətgahlarında böyük intizarla məhkəmələrin yekunlaşmasını gözləyir




Ziya Məmmədovun barəsində olan məlumat bundan ibarətdir ki, doğulduğu Ucar rayonundakı villasında günlərini keçirir. Ara-sıra Göyçayda geniş ərazini əhatə edən dəbdəbəli, vertolyot meydançasına malik bağına baş çəkir. Darıxanda Qubaya, oradan da Bakıya gəlib gəzib-dolaşır.

Eldar Mahmudovun isə belə hərəkətliliyi haqda məlumat yox dərəcəsindədir. Nardarandakı iqamətgahında komandasının üzvləri olmuş generalların məhkəməsini izləyir. Onun rəhbərliyi altında 11 il fəaliyyət göstərən, hazırda ən müxtəlif ağır cinayətlərin törədilməsi ittihamı ilə məhkəmə qarşısına çıxarılan generalların, şöbə rəislərinin və istintaqçıların işləri üzrə proseslərin yekunlaşmasını gözləyir. Yada salaq ki, hazırda Sabunçu Rayon Məhkəməsində "MTN işi" üzrə bir neçə dəstənin işinə dair proses keçirilir. MTN Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, onunla birlikdə həbs edilən 4 MTN əməkdaşının və digər dəstənin - MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-texniki idarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmə prosesləri yekunlaşmaq üzrədir.

Ziya Məmmədovun həyatını ağırlaşdıran, onu intizarda qoyan məhkəmə işi də var. Amma ölkəmizdə deyil, İsveçdə keçirilir. İsveç prokurorlarının Kanadanın "Bombardier" şirkəti əməkdaşının digər əməkdaşlarla əlbir olmaqla, 340 milyon dollarlıq müqavilə bağlamaq üçün "Azərbaycan məmurunu ələ almaq barədə" rəsmi ittiham irəli sürüb. Stokholm bölgə məhkəməsində azərbaycanlı məmurları rüşvətlə cəlb etdiyinə görə Kanadanın "Bombardier" nəqliyyat şirkətinin İsveç şöbəsinin əməkdaşı, Rusiya vətəndaşı Yevgeni Pavlovun məhkəməsi davam edir. "Bombardier"in Bakı-Böyük Kəsik dəmir yolu xəttinin siqnal sisteminin modernləşdirilməsi ilə bağlı 2013-cü ildə imzalanmış müqavilə səbəb olub. Müqavilə imzalanarkən "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tərkibində idi və bu struktura o zaman Arif Əsgərov rəhbərlik edirdi. Nəqliyyat naziri postunu isə Ziya Məmmədov tuturdu. Araşdırmanı əvvəlcə İsveçin SVT telekanalı, TT agentliyi və "Radio Canada", habelə mütəşəkkil cinayətkarlıq və korrupsiya araşdırmaları üzrə jurnalistika Mərkəzi OCCRP birgə aparıb. Jurnalistlər aşkara çıxarıblar ki, "Bombardier" şirkəti ilə "Azərbaycan Dəmir Yolları" QSC arasında bağlanmış müqaviləyə əsasən 46 siqnal avadanlığı birbaşa Azərbaycana göndərilir, ancaq pullar Londonda qeydiyyatdan keçmiş, nə ofisi, nə ünvanı, nə telefon nömrəsi olmayan hansısa şirkətə köçürülür. Sövdələşməyə əsasən, siqnalizasiya avadanlıqlarının təchizatı iki ayrı müqavilə əsasında həyata keçirilir. Birinci müqavilə üzrə "Bombardier" şirkəti tərəfindən "Ebilock-950" siqnalizasiya avadanlığı 126 milyon İsveç kronuna Londonda qeydiyyatdan keçmiş həmin "Multiserv Overseas" şirkətinə satılır, həmin şirkət isə avadanlığı bu dəfə 5,5 dəfə baha qiymətə, yaxud o vaxtkı məzənnə ilə 695 milyon krona və ya 104 milyon dollara Azərbaycana satır. İsveç prokurorluğu bildirir ki, Azərbaycan məmurları "Bombardier" şirkəti ilə bağlanmış müqavilədən bu fırıldaq mexanizmi sayəsində "otkat" alıblar. İsveç hüquq-mühafizə orqanları diqqəti belə fakta yönəldir ki, 2013-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin elan etdiyi həmin tenderə "Bombardier" şirkətindən başqa bir neçə şirkət də qatılmışdı və onlar xeyli aşağı qiymət təklif etmişdilər. Lakin müqavilə "Bombardier"lə bağlanıb. Məhkəmə davam edir və davam etdikcə Z.Məmmədovun barəsində də faktların ortaya çıxma ehtimalı qalır.

Zamanında Eldar Mahmudov Ziya Məmmədovun çökdürülməsi üçün çox çabalar göstərib. Onun ətrafında müəmmalı ölüm işləri baş verib, gizli danışıqları mətbuat səhifələrinə çıxarılıb. Yol-yeyinti faktları, böyük korrupsiya əməlləri də mətbuatdan gizli qalmayıb. Eldar Mahmudovun oliqarx-nazirin çökdürülməsi planını gerçəkləşdirmək üçün onun ən yaxın çevrəsinə qarmaq atıb. Amma Ziya Məmmədovu çökdürmək iqtisadi inkişaf naziri Fərhad Əliyev və səhiyyə Əli İnsanov, onlardan sonra maliyyə naziri Əvəz Ələkbərov, Fərhad Əliyevi kreslosunda əvəzləyən Heydər Babayevi yıxmaq qədər asan olmadı. Çərxi-fələk başqa cür dövran etsəydi, proseslər Eldar Mahmudovun planları üzrə getsəydi, bu gün nə o, nə də Ziya Məmmədov eyni aqibəti bölüşmürdülər. Hər iki eks-nazir bu gün faktiki olaraq ölkə dustağıdır. Hər iki nazir 500 kilometr uzunu, 500 kilometr eni olan Azərbaycan adlı ölkənin sərhədlərini aşa bilməz.

Bu da yeni dövrün qeyri-rəsmi qətimkan tədbiridir. Gəz dolan, puldan xərclə, amma ölkədən çıxa bilməzsən. Əslində böyük dərddir. Vaxtında şəxsi təyyarəsi olan biri indi ölkədən çıxa bilmir, xaricdəki cəh-cəlalına baş çəkmək imkanından məhrumdur.

Hər iki şəxs nazirlikləri dövründə Azərbaycanın iqtisadi qüdrətinin artmasını önləyən, hər addımda büdcə pullarını ələ keçirməyə hazır mövqedə olublar. Büdcə pulları, sahibkarların talan edilməsindən dolayı böyük varidata sahibdirlər. Ölkədə əldə etdikləri böyük pulları çox-çox uzaq diyarlara aparıb oraların vətəndaşlarına iş yeri, şərait qurublar. Azərbaycanda isə həmin pullarla qurulmalı olan yollar, layihələr batıb, vətəndaşlar işsiz-güc ardınca Rusiya çöllərinə düşüblər.

Bu gün Ziya Məmmədov da, Eldar Mahmudov da ölkə dustağıdır. Onları birləşdirən hazırda budur.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# 25 sentyabrdan əvvəl və sonra - bölgəni nə gözləyir?



## Bakı və müttəfiqləri üçün kritik 10 gün - gözlər Ərbildə

Türkiyə və İsrailin antaqonist mövqelərdə olduğu kürd referendumu ətrafında vəziyyət təhlükəli məcrada inkişaf edir; "kürd dövləti" ideyası dost-tərəfdaşları düşmənlərə çevirə bilər - böyük risk; **politoloq:** "Kürdlərin səhvi bölgənin alovlanmasına gətirib çıxaracaq..."

**Şimali İraq Kürd Muxtariyyətində (ŞİKM) keçiriləcək müstəqillik referendumuna 10 gün qaldı. 25 sentyabr tarixi yaxınlaşdıqca təkcə İraqda deyil, onun ətrafında, böyük bir bölgədə də gərginlik artmaqdadır. Səbəb isə kürdlərin ilk dəfə olaraq, müstəqillik referendumu keçirməyə hazırlaşması, lakin bu səsvermənin nə İraq dövləti, nə də digər ərəb ölkələri, habelə Türkiyə və İran tərəfindən bəri başdan legitim hesab edilməməsidir.**

Mövcud beynəlxalq normalara əsasən, bu cür ayrılma referendumları birtərəfli qaydada reallaşa bilməz və mütləq etnik azlığın yaşadığı dövlətin ümumi razılığı ilə həyata keçməlidir. Əks halda, o, legitim sayılmayacaq. Necə ki, 2014-cü ildə Krımın Rusiyaya birləşdirilməsi BMT səviyyəsində tanınmadı və zorakı akt kimi tarixdə qaldı. Yəni bu gün beynəlxalq hüquq normaları nə qədər çeynənsə də, ölkələrin ərazi bütövlüyü, hər halda, öndə tutulur, ərazi bütövlüyünün zorla dəyişdirilməsi məqbul sayılmır.

*****

İraq parlamenti isə dünən öz toplantısında kürdlərin ölkə ərazisində keçirəcəkləri referendumunu qeyri-qanuni adlandırıb. Lakin ŞİKM lideri Məsud Bərzani bəyan edib ki, nəyin bahasına olursa-olsun, referendum baş tutacaq. O üzdən İraq parlamentinin məlum qərarından sonra 25 sentyabr referendumunun İraqda növbəti vətəndaş müharibəsinə səbəb olacağı haqda fikirlər çoxalıb. Parlamentin qərarının İraq kürdlərinin referendum istəyindən vaz keçməsinə səbəb ola biləcəyi, əks halda, bunun rəsmi Bağdadla kürdlər arasında bütün körpülərin yandırıldığı anlamına gələcəyi də iddia edilir.

Bu arada İsrailin baş naziri Benyamin Netanyahudan vəziyyəti daha da körükləyən açıqlama gəlib. Netanyahu kürdlərin müstəqillik arzusunu dəstəkləyərək deyib ki, bu, onların haqqıdır. Ayrı sözlə, İsrail hökumətinin başçısı məsələdə ərəb dünyasının, Türkiyə və İranın mövqeyinə diametral zidd mövqe ortaya qoyub - hərçənd əvvəldən də rəsmi Təl-Əviv gizli-açıq şəkildə bölgədə kürd dövlətinin yaranmasının tərəfdarı kimi çıxış edib.

Bir çox analitiklərə görə, İsrail kürd dövləti timsalında bölgədə özünə yeni bir müttəfiq, eyni zamanda Türkiyə, İran və ərəb dünyasına qarşı təzə təzyiq və təhdid vasitəsi qazanmağa ümid edir.

*****

**Situasiyanı teleqraf.com-a şərh edən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli hesab edir ki, bəzi dövlətlər İraqın parçalanmasının lehinə hərəkət edirlər. Onun sözlərinə görə, hətta onlar kürdləri açıq müdafiə etməkdən belə çəkinmirlər:** "Burada İsrailin yüksək rütbəli məmurlarının bəyanatları pozucu rol oynayır. Qeyd edim ki, İsrail müstəqil kürd dövlətinin yaradılması istiqamətində xeyli müddətdir fəaliyyət göstərir. Hətta ABŞ-ı da bu işə cəlb edə bilib. ABŞ da yarıaçıq, yarıqapalı formada kürdlərin dövlət yaratmasına dəstək verir. Sadəcə, indiki anda ABŞ referendumun keçirilməsini təxirə salmaq çağırışı edir. İraq başda olmaqla, bütün ərəb dövlətləri buna qarşıdır. Türkiyə və İran isə bu məsələdə konkret mövqe ortaya qoyub. Hətta Tehran və Ankara arasında bununla bağlı gizli razılaşma əldə olunub *(Söhbət referendumdan sonra kürd muxtariyyəti ərazisinə ortaq hərbi qüvvələrin yeridlməsindən gedir - A.X.)".*

**Politoloq bu xüsusda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın yaxınlarda reallaşacaq İrana səfərinə diqqət yönəldib:** "Səfərin bir məqsədi də müstəqilliyə can atan ŞİKM məsələsi ilə bağlı müzakirə aparmaqdır. Bölgə dövlətlərinin hamısı İraqın şimalında müstəqil dövlətlə bağlı referendumun əleyhinədir. Sözsüz ki, Türkiyənin əlində ciddi əsaslar var. İş ondadır ki, Kürd Muxtariyyəti 1995-ci ildə mövcud olduğu ərazidən üç dəfə böyük ərazi işğal edərək özünə birləşdirib. Bu ərazilərin çox hissəsi, o cümlədən Kərkük, Mosul, Süleymaniyyə türkmənlərə məxsusdur. Elə muxtariyyətin paytaxtı Ərbilin özü də türkmən şəhəridir. Türkiyə də ərazinin süni formada genişləndirilməsinin əleyhinədir. Üstəlik, İraqın ərazi bütövlüyünün pozulmasına qarşıdır. İran da bu iddialarla çıxış edir. Kürdlər İran sərhədindən tutmuş Aralıq dənizinə qədər böyük ərazilərə iddia edir. Bu da əksər bölgə dövlətlərinin maraqlarına uyğun deyil".

**Sabiq dövlət müşavirinin əminliyinə görə, əslində indiki mərhələdə kürdlər böyük xətaya yol verirlər:** "Ona görə ki, bu səhv bölgənin alovlanmasına gətirib çıxaracaq. Mən hətta yaxın zamanlarda kürdləri neytrallaşdırmaq üçün təcili əməliyyatların başlayacağını da istisna etmirəm. Söhbət bir neçə dövlətin ərazi bütövlüyünə qəsd edə biləcək bir siyasi layihənin gerçəkləşdirilməsindən gedir. Bu mənada Yaxın Şərqdə yeni gərginlik ocağı yarana bilər. Bununla belə, hesab edirəm ki, kürdlər referendum keçirsə də, onun müstəqilliyini heç kim tanımayacaq. Referenduma qədər də bəzi hərəkətlər ola bilər ki, sonda kürdlər bu addımdan çəkinə bilər. Eyni zamanda bu referendumu keçirən siyasi xadimlər yəqin ki, sentyabrın 25-dən sonra siyasi mövqelərdə olmayacaqlar. Kürdlərin bu addımları risklidir".

**Qabil Hüseynli əlavə edib ki, İraq parlamentinin məlum qərarı kürdlərin referendum keçirməklə bağlı qərarlarının hüququ bazasını ləğv edir:** "İraq bu məsələyə nisbətən soyuq yanaşır, muxtariyyətə əlavə hüquqlar vermək yolu ilə bu problemi həll edəcəyini güman edirdi. İndi rəsmi Bağdad görür ki, bu, mümkün deyil. İraq parlamentinin qərarı BMT-nin nizamnaməsinə uyğundur. BMT İraqın ərazi bütövlüyünü tanıyıb. Parlamentin məlum qərarı dünya birliyi tərəfindən tanınan və qəbul edilən yeganə sənəd olacaq. Əslində İraq parlamentin bu qərarı ilə muxtariyyət Məclisinin qərarını qüvvədən salmış olub".

**Ekspertin qənaətincə, əgər tərəflər öz mövqelərində sona qədər israr edəcəksə, bu zaman bölgə qan çanağına dönə bilər:** "Qan axıdılması ehtimalları var. Bərzaninin siyasi hakimiyyətdən kənarlaşdırılması ehtimalı da yüksəkdir. Bu məsələdə ərəblər, iranlılar və türklər kompramisə yol verməyəcək".

******

Ən təhlükəlisi də elə proseslərin ən pis - qanlı ssenari üzrə inkişaf eləməsidir. O halda Azərbaycanın maraqları da müəyyən sınaqlarla üzləşəcək. Ən azından ona görə ki, həm qardaş Türkiyə, həm də İsrail bizə strateji tərəfdaş ölkələrdir. Ankara və Təl-Əviv arasında yeni gərginlik ocağının yaranması, dostların münasibətlərinin pozulması isə Azərbaycanın maraqlarına, ümumiyyətlə, uyğun ola bilməz və hətta Bakını seçimlə üz-üzə qoya bilər. Bu isə ən çox işğalçı Ermənistanın maraqlarına cavab verir.

Ümid edək ki, "kürd kartı" yekun etibarilə Azərbaycan da daxil, köhnə-yeni müttəfiqlərin səfini poza bilməyəcək və vəziyyətdən optimal çıxış yolu tapılacaq. Referendum sonucda baş tutmaya da bilər.

❑ **Analitik xidmət**

# Müqəddərat məsələsi



**Xalid KAZIMLI**

**3-4 il öncə kosmopolit və ultra-liberal düşüncəli həmvətənlərimiz vaxtaşırı belə bir fikir izhar edirdilər ki, milli dövlətçilik ideyası artıq iflasa uğrayıb, Avropada insanların hansı millətdən olmasına fikir vermirlər, əsas məsələ vətəndaşlıqdır, irqi, milli ayrı-seçkilik halları yoxdur və sair və ilaxır.**

Millətlərin bir-birinə qaynayıb-qarışdığı, çoxmillətli dövlətlərin boy göstərdiyi Avropadan baxanda dünya bu cür al-əlvan görünürdü.

O zaman biz dünyada Myanma (Birma) adlı dövlətin mövcudluğunu bilirdik, amma rohincalıların varlığından, eləcə də milli faciələrindən xəbərsiz idik. Tanıdığımız Uzaq Şərqdə milli dövlətçilik mücadiləsi aparan uyğurlar, Yaxın Şərqdə eyni məqsədlə hər yola əl atan və güclənməkdə olan kürdlər idi.

Bir də bilirdik ki, dünyada 3 minə yaxın millət var. Xalqların öz müqəddəratını təyinetmə hüququnun olmasından da xəbərdar idik. Fəqət bu 3 min xalqın hamısının milli dövlət qurmaq imkanında olmadığını da hər kəs bilirdi.

Gerçəkdən dünya 3 min dövlətə tab gətirməz. Beynəlxalq münasibətlərdə, sərhəd bölgüsündə elə bir xaos əmələ gələr ki, qan su yerinə axar (yəni indikindən də pis), azsaylı xalqlar genosidə məruz qalıb tamamilə yoxa çıxar, dünyada dövlətlərdən çox, bir ərazini tutub hökmranlıq edən kiçik-kiçik tiranlıqlar əmələ gələr.

Ancaq belə bir hesablaşılası fakt da odur ki, dünyada milli dövlətlərini qurmaq istəyən çoxsaylı xalqlar da var. Onların bəzilərinin sayı milyonlarla ölçülür. Məsələn, Çində yaşayan uyğurlar öz milli dövlətini qurmuş 100-120 xalqdan daha çoxsaylıdır, amma milyard yarım əhalisi olan Çinin içində milli azlıqdır.

Ən azı dörd ölkənin içində tikə-parça halda yaşayan kürdlər də hər halda biri BMT üzvü, digəri tanınmamış və qanunsuz iki milli dövlətə malik ermənilərdən on dəfə çoxdurlar.

Bu gün rohincalıların başına gələn fəlakət sırf milli dövlətçiliyə malik olmamaları üzündəndir. Onların dünya tərəfindən tanınan dövləti, paytaxtı, bayrağı, sərhədi olsaydı, 21-ci əsrdə, dünyanın gözü qarşısında genosidə məruz qalmazdılar.

Bəzən adamlar mat qalır: yəni dünyanın bu vaxtında, soyqırımın bəşəri cinayət sayıldığı və mühakimə edildiyi vaxtda bir millətin kökünü kəsmək olarmı?

Gördüyünüz kimi, kəsmək olur. Bir millətin sonuncu adamını öldürüb kökünü kəsmək mümkün deyilsə də, müəyyən bir ərazidən onların qovub çıxarmaqla, həmin ərazidə onların izini yox etmək olur və dünya birliyi bunu sakitcə seyr edir.

3-4 ildən sonra ola bilər ki, beynəlxalq tribunal qurulacaq və rohincalıları qırıb-çatan myanmalı generalları, din xadimlərini mühakimə edəcəklər, amma bunun boz çöllərdə, dəniz dibində skeleti qalmış yazıq, məsum rohincalılara xeyri olmayacaq.

Yəni dünya birliyi hansısa ölkədə yeridilən genosid siyasətini durdura bilmir, amma sonradan onu bu və ya digər şəkildə mühakimə edir, bəzən də ögey-doğmalıq edərək, siyasi konyukturaya qapılaraq göz yumur.

Budur, ABŞ başda olmaqla bir sıra dövlətlər Yaxın Şərqdə Kürdüstan dövlətinin qurulmasına, bundan ötrü 4 dövlətin parçalanmasına *(Suriya və İraq artıq parçalanıb, İran və Türkiyə də eyni aqibətə sürüklənir)* çalışırlar, ancaq bu dövlət qurulandan sonra onun tərkibində yaşayan etirazçı milli azlıqların - türkmənlərin taleyinin necə olacağını düşünmürlər.

Türkmənlərin də öz müqəddəratlarını təyin etmək haqqı var axı. Üstəlik, bu məqsədə yetmələri üçün onlara arxa-dayaq ola biləcək dövlətlər də mövcuddur.

Bu baxımdan Avropada yüksək rifahlı, çoxmillətli, bir-birinə qaynayıb-qarışmış xalqların yaşadığı dövlətlərdən baxaraq, "milli dövlətçilik erası keçdi, vətəndaş dövlətləri yaranır" deyə düşünənlər yanılır. Əksinə, böyük və çoxmillətli dövlətlərin parçalanması, etnik qrupların "milli mənzillər" üzrə paylanması prosesi başlayıb və şiddətlənib.

Demək ki, milli dövlətçiliyə xor baxmaq, kosmopolit düşüncələrə qapılmaq olmaz. Bizi millət və fərd olaraq qoruyub-saxlayan, hüquqlarımızı *(xüsusilə də mövcud olmaq, yaşamaq hüququmuzu)* müdafiə edən məhz milli dövlətimizin mövcudluğudur.

Biz hansısa imperiyanın tərkibində 100 il xoşbəxt yaşaya bilərik, amma bir gün tarixin çarxı elə dönər ki, altında qalar, əzilərik. Azsaylı xalqların başı üzərində əbədi qılınclar var: deportasiya və genosid, əsarət və istismar...

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017



# Şeyxin çexlə sexi

Zamin HACI
zaminhaci@gmail.com

*(Bilik günü üçün yanıltmac)*

**Dərs ili başlayır. Artıq valideynlər və jurnalistlər məktəb direktorları ilə daha yaxından ünsiyyət qura biləcəkdir. Gəlin etiraf edək ki, "aaz, səni tutub cıraram, mikrofonunu da münasib yerində saxla", "sən kimsən mənim məktəbimdən yazmaq istəyirsən, sənin axan ağzına ərim metodik vəsait yazsın" tipli pedaqoji mülahizələri telefonda, virtual eşitməkdənsə canlı dinləmək daha maraqlıdır.**

Məktəbdən zəng vurmuşdular, deyir gəlin uşağın dərsliklərini götürün. Getdim, necə deyərlər, getməz olaydım. Məktəbin dəhlizində bir başdan peyğəmbərin kəlamları asılıb, o biri başdan imamların. Həyətdə azan oxunsa, heç bir işə yaramayan idman salonu isə mürdəşirə icarəyə verilsə, sanarsan məscidə girmisən. Görəsən, bunlara kim icazə verib məktəbə imamların sözlərini yazırlar? Azərbaycan ata sözləri plakatı da dini kəlamlardan geri qalmırdı. Buyurun, sitat verirəm: "Elm oxumaq - iynə ilə gor qazımaq deməkdir". Uşağa belə ata sözü ilə elm öyrətmək olar? Uşaqlar bəyəm qəbirqazandır? Təbii ki, atalarımız bunu haçansa elmin çətin başa gəlməsi mənasında işlədə bilərdilər, ancaq bunu uşaqlara ünvanlamaq nə dərəcədə doğrudur? Hərçənd məktəblərimizin verdiyi təhsilin mənasızlığı, ancaq torpağa gömülməyə layiqliyinin simvolu kimi yaxşı məsələdir.

Dərs hissə müdiri ilə görüşürük. 3 valideynik. Deyir gərək o biri valideynlər də yığılsın, yoxsa kitabları verə bilməz. Bunun məntiqsiz addım olduğunu bildirirəm: "Bəlkə heç o biri valideynlər gəlmədi. Mən niyə başqalarını gözləməliyəm?" Beş dəqiqə keçir, bu dəfə, ümumiyyətlə, səhv gəldiyimizi iddia edir: "Sabah gəlin, indi kitabxanaçı yoxdur". Ancaq kitabxana açıqdır. Deyir, bu nəsə ayrı kitabxanaçıdır. Nə edə bilərik, sabah deyilən vaxtda yenə gəlirik. Bu dəfə də kitablar verilmir: "Hələlik sizə müəllim axtarırıq. 15-də gəlin, kitab olacaq". Sən demə, uşağın müəllimi dəyişilib. Fikirləşirəm: "Mən uşaqları bu məktəbə göndərib hələ onlardan nəsə umuram".

Düzgün yol elə bu məktəblərin tutduğu yoldur. Nə biləsən, bəlkə uşaq böyüyüb şeyx oldu, Çexiyada dükan açdı... Saytlar yenə uca şeyximizin Çexiyada *(bir dəfə mən bu temada yazıma "Şeyxiya" başlığı qoymuşdum - doğrudan əsl şeyxlərə layiq ölkədir)* biznesini tapıblar. Marketa Şpişakova adlı mamlı-matan bir zənənlə ortaq biznesdir. Google şirkətinə imam kömək olsun, mən də axtarıb tapdım. Doğrudan da Karlovı Varı şəhərində şeyximiz, qardaşı Cavanşir müəllim və həmin Marketa xanım ortaq şirkət qayırıblar. Hətta orda Allahşükür müəllimin Bakıda Musa Nağıyev küçəsində qeydiyyatda olması da yazılıbdır.

Şirkətin adını isə əsl müsəlman kimi "Aynur" qoyublar. Əhsən. Çünki həmin qeydiyyat saytında bu Marketa xanımın başqa şirkəti də görünür, adı isə "Osiris"dir. Qədim misirlilərin tanrısı. Şeyx islama yad olub şirkətə "Osiris", "Amon", nə bilim "Kleopatra və Ramzes" adı qoysa biz inciyərdik. Nə olsun tolerant və multikulturalıq? Xaricdə özümüzü millətçi kimi aparmalıyıq. Lazım gəlsə "Çelsi"nin stadionunda otları yolmalıyıq. Təki vətən yaşasın! *(Məncə, Azərbaycan müxalifətinin liderləri həmin oyuna getsəydilər biz altı sıfır uduzmazdıq. Ar olsun).* İndi isə şeyxin çexlə açdığı sexin adı dinimizə uyğun Ay nuru ilə əlaqələndirilibdir. Axı bəzi dini bayramda Ay nuru görünməsə, camaat bayrama başlamır. Allahşükür müəllim də hər dəfə Marketa xanımın üzündəki nuru görəndə "loblu, loblu" deyir. Düzdür, bu nəsə başqa bir klassikimizin əsərindən sitat idi, unudun getsin, mənasız söhbətdir yazıblar. Bizim də başımızı xarab eləyib çöllərə salıblar. Vaxtında düzgün kitab oxusaq, bəlkə indi Marketa xanımla marketdə marketinq eləyirdik.

Gec deyil, barı siz uşaqlarınızı yaxşı istiqamətləndirin.



# Rusiyada terror xəbərdarlıqları - Azərbaycana da təhlükə...

## Ekspert: "Son günlərin terror xəbərdarlıqları İŞİD-in dəsti-xətti deyil"

**Son 4 gün ərzində Rusiyanın paytaxtı Moskvada ticarət mərkəzləri, qatar stansiyaları və universitetlər olmaqla, 20 məkanda bomba qoyulması barədə həyəcan siqnalı verilib. Eləcə də Moskvanın hüquq-mühafizə orqanlarına Qırmızı Meydanda da bomba olmağı ilə bağlı məlumat daxil olub. Həyəcan siqnalı nəticəsində ümumilikdə 190 obyekt boşaldılıb, 45 minə yaxın insan evakuasiya edilib.**

Bundan əvvəl isə Rusiyanın regionlarında terror xəbərdarlığı haqda məlumatların daxil olması kütləvi evakuasiyalarla nəticələnmişdi. Bir sıra ekspertlər bu kimi halları Rusiyanın Suriyadakı fəaliyyəti ilə əlaqələndirir. Eyni zamanda ekspertlər hesab edirlər ki, ABŞ və İsrail proyekti olan "Kürdüstan dövləti"nin yaradılması Rusiyanı narahat edir. Qarşıdan gələn 25 sentyabr müstəqillik referendumundan Rusiya da narazıdır. Bu isə regionda gərginlik yaradır və terror təşvişini aktivləşdirir.

Onu da xatırladaq ki, sentyabrın 12-də Bişkekdə MDB ölkələri Silahlı Qüvvələrinin Baş qərargah rəisləri komitəsinin iclasında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini Sergey İstrakov bildirmişdi ki, MDB-nin cənub sərhədlərində terror təhlükəsi güclənir.

**Bəs Azərbaycan üçün təhlükənin miqyası nə dərəcədədir? "Yeni Müsavat"a danışan təhlükəsizlik üzrə ekspert İlham İsmayıl məsələyə fərqli yöndən yanaşdı. O bildirdi ki, kürd məsələsində Rusiyaya təzyiq söhbəti yoxdur:** "Çünki Rusiyanın kürdlərlə, PKK və digər təşkilatlarla çox sıx əlaqələri var. Ona görə də kürdlər heç zaman Rusiyada terror hadisəsi həyata keçirməyəcəklər. Rusiya da xüsusi olaraq vurğulamır ki, "Kürdüstan dövləti" yaranmasın. İŞİD-lə bağlı məsələyə gəlincə isə bu terror qruplaşması artıq məğlub olduqca geri çəkilir. Geri çəkildikcə çalışırlar ki, ölkələrinə qayıtsınlar. Rusiyanın isə İŞİD-də Şimali Qafqazdan olan xeyli vətəndaşı var. Ancaq son günlərin terror xəbərdarlıqları İŞİD-in dəsti-xətti deyil. Bu, sadəcə olaraq, hansısa radikalların təsiridir. Eyni zamanda elə bilməyin ki, Rusiyada hakimiyyət uğrunda mübarizə getmir. Seçki ərəfəsidir və beş aydan sonra orada seçkilər başlayacaq. Ona görə də hər şey ola bilər. Ehtimal ki, daxili qüvvələrin özləri də terror hadisələri ilə hakimiyyəti gözdən salsınlar. Bir məsələ də var ki, Rusiyada bu təxliyə işləri daha çox xüsusi xidmət orqanlarının özünü ayıq göstərməsidir. Belə olan zaman xüsusi xidmət orqanları hadisəni qabarıq şəkildə göstərməyə çalışır ki, bu cür təhlükənin qarşısını alıblar. Yəni Rusiyada hazırda ciddi terror hadisələri gözlənilmir. Bu, o zaman baş verəcək ki, Rakka tam ələ keçiriləcək və İŞİD-in üzvləri Şimali Qafqaza dönəcək".

**Ekspert Azərbaycanda terrorçuların zərərsizləşdirilməsi və real təhlükə barəsində də danışdı:** "İlk olaraq terrorçuların öldürülərək zərərsizləşdirilməsi məsələsinə toxunaq. Məndə olan məlumata görə, həmin anda əldə olunan əməliyyat məlumatı ilə keçirilən əməliyyat arasında zaman çox qısa olub. Ona görə də terrorçuların öldürülməsindən başqa, digər yol qalmamışdı. Əvvəllər mən də tənqid edirdim ki, terrorçuları nə üçün diri tutmurlar. Ancaq situasiya kifayət qədər gərgin idi. Bu çıxılmaz vəziyyətdə isə terrorçu məhv edilməli idi. Son günlər isə sonu terrorla nəticələnə biləcək yolların qarşısı alınıb. Məsələn, xüsusi xidmət orqanları Qəbələdə qadağan olunmuş ədəbiyyatlardan tutmuş, soyuq silahlara qədər əldə ediblər. Bu istiqamətə Azərbaycanda nəzarət var. Ümumiyyətlə, SSRİ dağılandan bəri Azərbaycanda terror təhlükəsi hər zaman açıqdır. Əvvəllər bunu ermənilər törədirdilər, sonra radikal islamçılar başladılar. İndi də İŞİD-lə bağlı olanlar müxtəlif cür əl-qol atmağa başladılar. Ona görə də Azərbaycanda hazırda da terror gözləmək mümkündür. Çünki çox radikal dindarlar var ki, onlar hər zaman tətikdədirlər və nə isə həyata keçirə bilərlər. Hələ ki əməliyyat şəraitinə nəzarət olunduğundan Azərbaycanda ciddi terror hadisəsi baş verməyib. Lakin elə vəziyyətə gəlib çıxıb ki, hər zaman gözləmək mümkündür".

**İ.İsmayıl MDB məkanında terror təhlükəsi ilə bağlı rusiyalıların səsləndirdiyi fikrə də münasibət bildirdi:** "Maksimum çalışırlar ki, Rusiyanın təhlükəsizlik xidməti ilə MDB ölkələrinin xüsusi xidmət orqanlarının əməkdaşlığını daha sıx etsinlər. Onları özlərindən bir qədər asılı vəziyyətə salmağı düşünürlər. Rusiyanın hər zaman bu kimi gedişləri olub. Özlərini elə göstərmək istəyirlər ki, guya SSRİ məkanına onlar hələ də nəzarət edirlər, işləri bunların köməyi ilə aradan qaldırırlar. Xüsusi xidmət orqanlarının yeri gələndə şişirdilmiş bəyanatları ola bilər. Xüsusilə də Rusiya üçün bu, daha aktualdır".

❑ **Əli RAİS**

# ABŞ səfiri iki ölkənin münasibətlərinə qiymət verdi

**"ABŞ güclü, müstəqil, çiçəklənən və demokratik Azərbaycan görmək istəyir, Azərbaycanın necə mürəkkəb bölgədə yerləşdiyini də anlayır".**

APA-nın məlumatına görə, bunu ABŞ-Azərbaycan əməkdaşlığının perspektivlərini dəyərləndirən ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta deyib.

R. Sekuta bildirib ki, iki ölkənin əməkdaşlığı eyni dərəcədə əhəmiyyətli üç sahəni əhatə edir: "Birinci sahə enerji və iqtisadiyyat, ikinci sahə demokratiya, insan haqları və qanunun aliliyi, üçüncü sahə isə təhlükəsizlikdir. Bu üç sahənin hər biri eyni əhəmiyyətə malikdir, bu gün də belədir, sabah da belə olacaq".



**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyevin azadlığa buraxılmasına da münasibət bildirən R. Sekuta qeyd edib ki, onun saxlanılması ilə bağlı narahatlıqlarını ifadə ediblər:** "Biz Mehman Əliyevin azadlığa buraxılmasını pozitiv qiymətləndiririk. İnanırıq ki, bu pozitiv addım Azərbaycanda demokratiya və insan haqlarına pozitiv yanaşmanın bir başlanğıcı olacaq".

**R.Sekuta ABŞ-ın Azərbaycanda və Xəzər hövzəsinin digər yerlərində yerləşən neft və qaz resurslarının hasilatına fəal şəkildə dəstək verdiyini də deyib:** "Bu, 1990-cı illərin əvvəlinə təsadüf edir. Burada məqsəd hasil olunmuş neft və qazın Avropa və digər bazarlara təhlükəsiz şəkildə çatdırılmasıdır. Bu da öz növbəsində iqtisadi inkişafa və qlobal enerji təhlükəsizliyinə töhfə verib. ABŞ neft-qaz sektoru, qeyri-neft sektoru, Yeni İpək Yolunun həyata keçirilməsində Azərbaycanın tərəfdaşı olub, bundan sonra da uzunmüddətli tərəfdaşı olaraq qalacaq".

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# Azərbaycan neft hasilatında iştirak payını 25%-ə qaldırdı

**Sentyabrın 14-də Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli"(AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirilib. "Yeni Müsavat" "Trend", APA və "Turan" saytlarına istinadən xəbər verir ki, mərasimdə prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.**




# "Yeni Əsrin Müqaviləsi" imzalandı-tarixi saziş və növbəti 32 il üçün qarantiya

"Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi layihəsinin operatoru yenə BP olacaq; **Prezident İlham Əliyev:** "Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik"; Azərbaycan 1994-cü ildən iki dəfə sərfəli bir sazişin imzalanmasına nail oldu

### Prezident İlham Əliyev: "Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcək"

"Bu gün Azərbaycan üçün əlamətdar və tarixi bir gündür. "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsində yeni dövr başlayır"-prezident İlham Əliyev çıxışında belə deyib.

**Dövlət başçısı bildirib ki, müqavilənin ölkəmiz üçün böyük əhəmiyyəti var:** "Bu yataqların işlənməsi 2050-ci ilə qədər uzadılır. Bu kontrakt Azərbaycan üçün daha əlverişli, daha yaxşı şərtlərlə imzalanır. Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. SOCAR-ın payı 25%-ə qaldırılır. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75% təşkil edəcək. "Əsrin müqaviləsi" imzalanan zaman AÇG-də 511 milyon ton neft olduğu ehtimal edilirdi. Ancaq ehtiyatlar proqnozları üstələdi. Hazırda "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş 500 milyon ton neft var".

**Prezident "Əsrin müqaviləsi" imzalanan ərəfəyə də tarixi ekskurs edib:** "1992-ci ildə AXC-Müsavat hakimiyyəti dövründə ölkədə anarxiya yaşanıb. 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlayıb. Bununla yanaşı, Ermənistan torpaqlarımızın böyük hissəsini işğal etmişdi. Belə ağır vəziyyətdə xalq Heydər Əliyevi dəvət etdi".

**Dövlət başçısı deyib ki, o dövrdə xarici investorları cəlb etmək tarixi nailiyyət idi:** "Bu, böyük məharət tələb edirdi. İndi Azərbaycan öz hesabına yaşayan ölkələrdəndir. Ölkəmizin gələcək inkişafı üçün siyasi, iqtisadi və ya başqa maneə yoxdur. Ölkəmiz bundan sonra uğurla inkişaf edəcək. Bu potensialın formalaşmasında "Əsrin müqaviləsi"nin böyük rolu var. Biz müstəqil siyasət aparan, heç kimdən asılı olmayan ölkəyik. Bu, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanı da bizə "Əsrin müqaviləsi" yaratdı".

**İlham Əliyev çıxışında xatırladıb ki, 2012-ci ildə Türkiyədə TANAP layihəsinə imza atıldı. 2013-cü ildə isə TAP layihəsi qaz kəməri kimi seçilib. Prezidentin sözlərinə görə, "Səngəçal" dünyada ən böyük neft-qaz terminalıdır:** "Azərbaycanda neft platformaları tikilir. Bunlar "Əsrin müqaviləsi"nin Azərbaycana verdiyi faydalardır. Dövlət Neft Fondu bizim üçün böyük bir amildir. Neftin qiymətinin düşməsi də bizi yolumuzdan döndərə bilmədi. Biz valyuta ehtiyatlarımızı artırırıq. "Şahdəniz", "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçməsi ilə valyuta ehtiyatlarımız daha da artacaq".

Dünyada ilk dəfə quruda sənaye üsulu ilə Azərbaycanda neft quyusu qazıldığını, dənizdə ilk dəfə neft çıxarıldığını nəzərə çatdıran prezident İlham Əliyev uğurların əldə olunmasında Azərbaycan neftçilərinin böyük xidmətləri olduğunu söyləyib.

### Yeni sazişdə nələr var?

Azərbaycan hökuməti və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) "BP", "Chevron", "İNPEX", "Statoil", "ExxonMobil", "TP", "İTOCHU" və "ONGC Videsh" şirkətləri ilə "Azəri", "Çıraq" yataqları və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişi imzalayıblar. Sazişi prezident İlham Əliyevin və bir qrup yüksək səviyyəli xarici hökumət və dövlət rəsmilərinin iştirak etdiyi tədbirdə Azərbaycan hökuməti adından SOCAR-ın prezidenti Rövnəq Abdullayev və tərəfdaş şirkətlərin nümayəndələri tərəfindən imzalanıb.

Hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişə əsasən BP layihənin operatoru olaraq qalacaq.

Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65%-dən 25%-ə qaldırılacaq və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna $3.6 milyard bonus ödəyəcəklər. Növbəti 32 il müddətində AÇG-yə $40 milyarddan artıq sərmayə qoyulması potensialı var.

Saziş təsdiqləndikdən sonra AÇG-də tərəfdaşların yeni iştirak payları bu nisbətdə olacaq: BP- 30,37%; AzACG (SOCAR)- 25,00%; Chevron- 9,57%; INPEX- 9,31%; Statoil- 7,27%; ExxonMobil- 6,79%; TP- 5,73%; ITOCHU- 3,65% və ONGC Videsh Limited (OVL)- 2,31%.

Bu sazişin ardınca, SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirməsi məqsədi ilə mühəndis-layihə işlərinin irəli aparılması haqqında razılaşma əldə olunub.

**Mərasimdə çıxış edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev bu günün Azərbaycan üçün əlamətdar olduğunu bildirib:** "Bu gün SOCARla tərəfdaş şirkətlər arasında aparılan danışıqlara yekun vuraraq, razılaşdırılmış şərtlər əsasında AÇQ layihəsi üzrə 2049-cu ilin sonunadək davam edəcək yeni müqaviləni imzaladıq. Yeni müqavilənin şərtləri Azərbaycan Milli Məclisi tərəfindən təsdiqləinəndən sonra qüvvəyə minir ki, bununla da növbəti 32 il ərzində AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracağıq".

### BP-nin prezidenti: "Növbəti 32 il ərzində birlikdə çalışaraq..."

**BP şirkətinin baş icraçı direktoru Bob Dadli qeyd edib ki, ötən 23 il ərzində "Əsrin müqaviləsi" Azərbaycanı, Avropaya enerji təchizatını və bu işləri uğurlu etmək üçün əlindən gələni etmiş hər birimizi həqiqətən dəyişib:** "Bu gün imzalanmış saziş Azərbaycanın tarixində, bəlkə də daha əhəmiyyətli bir hadisədir, çünki bu, növbəti 32 il ərzində bizə birlikdə çalışaraq AÇG-nin uzunmüddətli işlənmə potensialını həyata keçirmək və yeni sərmayələr, yeni texnologiyalar və yeni birgə səylərlə onun neftvermə əmsalını maksimuma çatdırmak imkanı verir. Bu baxımdan, düşünürəm ki, bu sazişi "Yeni Əsrin Müqaviləsi" adlandırmaq düzgün olar".

**"Avropa İttifaqının ideyası olsa da, «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçirən məhz Azərbaycan və Türkiyə olub". Türkiyənin enerji və təbii qaynaqlar naziri Berat Albayrak çıxışında belə deyib.**

**B. Albayrak deyib ki, gələn il TANAP-ın fəaliyyətə başlaması tarixi hadisə olacaq:** "2019-cu ildə TANAP-la birləşəcək və Avropa üçün 4-cü strateki qaz mənbəyinə çevriləcək. Azərbaycan və Türkiyənin birliyi Avropa üçün önəmli nümunədir. Gələn il TANAP ilə 16 milyard kubmetr qaz ixrac olunmağa başlayacaq".

Türkiyəli nazir bildirib ki, bu çərçivədə Türkiyə-Azərbaycan əməkdaşlığı gələcək üçün önəmli bir nümunədir: "Türkiyə Azərbaycanın önəmli ortağı olmağa davam edəcək, TP Azərbaycandakı sərmayələrini artıracaq. Bu gün imzalanacaq tarixi sazişin Azərbaycan və tərəfdaşlığı üçün faydalı olmasını arzu edirəm".

### Yeni saziş nədən zəruri idi?

"Tuan"ın analtik qrupunun hazırladığı məqalədə bu suala belə cavab verilir: "SOCAR dövlətin maraqlarının müdafiəçisi kimi əvvəlcə 20 sentyabr 1994-cü ildə imzalanan sazişi uzatmaqdansa, yeni sazişin imzalanmasında israr edirdi.

Əvvəla, SOCAR-da hesab edirdilər ki, əvvəlki sazişdə dövlətin maraqları maksimum qorunsa da, o, müasir dövrün tələblərinə cavab vermir. İndiki Azərbaycan öz potensialı və imkanları ilə 1990-cı illərdə yenicə yaranan ölkə deyil. Şirkətlər o vaxt sazişi imzalayanda dövrün bütün risklərini nəzərə almışdı.

İkincisi, o vaxt ölkədə beynəlxalq sertifikatı olan mütəxəssislər praktik olaraq yox idi. Subpodrat işlərini Avropa normativlərinə uyğun yerinə yetirəcək şirkətlər, Azərbaycanın isə öz payını maliyyələşdirməyə imkanı yox idi.

Bu gün vəziyyət başqadır: ölkənin valyuta ehtiyatları $40 mlrd-dan çoxdur, siyasi sabitlik var, iqtisadiyyat şaxələndirilir, infrastruktur inkişaf etdirilir, Azərbaycanın regionda nüfuzu var və qonşu ölkələrdə öz biznesini inkişaf etdirir.

Birinci müqavilədə dövlətin maraqları yalnız layihəyə qoyulan investisiyaların xərcini çıxarmasına cəmləşmişdi, bununla dövlət yüksək mənfəətə nail ola biləcəkdi (80%), indi dövlətin fokusu bir qədər dəyişib.

Məsələ burasındadır ki, əvvəllər AÇG çərçivəsində hasilat intensiv artırdı və əlavə olaraq 2000-ci ildə neft bahalandı. Xərclər tezliklə çıxarıldı *(2008-ci ilin ortasında dövlətin mənfəəti 80%-ə çatdı, hərçənd bu məbləğin 5%-i BTC layihəsinə yönəldilirdi ki, o da vaxtından əvvəl gəlir gətirsin).* İndi başlıca vəzifə 2020-ci ildən başlayaraq 2030-cu ilə kimi illik hasilat həcmini 24-25 mln. ton həcmində saxlamaqdır. Bu, asan vəzifə deyil, amma yerinə yetirmək olar. Çünki layların mənimsənilməsində intensivlik olmayacaq. Ona görə yeni müqavilə çərçivəsində dövlətin SOCAR və dövlətin nəzarət etdiyi AÇG çərçivəsində iri podrat və subpodrat işləri görən müəssisələr vasitəsilə gəlirləri artacaq.

Daha bir vacib məqam. 2010-2019-cu illərdə Azərbaycanda, regionda və xaricdə həyata keçirilən layihələr çərçivəsində SOCAR-ın üzərinə böyük maliyyə yükü düşəcək. O, çoxmilyardlı kredit borcları götürüb *(layihələr işə başlayanda onlar mənfəət hesabına xərcini çıxaracaq)* dövlət bu layihələrdə ona kömək edir. SOCAR AÇG-də payını 11,6%-dən 25%-ə artırıb, artıq əvvəlkindən çox qazana bilər. Nəticədə dövlətin üzərinə düşən yük azalacaq".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# Hakim bank ombudsmanı oldu-problemli kreditlərə o baxacaq

## Əkrəm Həsənov: "Ombudsman müstəqil deyil, çünki ona əmək haqqını banklar ödəyəcək"

**Azərbaycanda bank ombudsmanı fəaliyyətə başlayıb. Banklar Assosiasiyasının nəzdində bank ombudsmanı təsis edilib. Artıq kiçik həcmli problemli kreditlər məhkəməyə getmədən həll olunacaq. Bunun üçün bank və ya müştəri "bank ombudsmanı"na müraciət etməlidir. İddialara əsasən, ilkin mərhələdə 2 min ABŞ dollarına qədər olan borclara baxılacaq.**

Bank ombudsmanı İkram Kərimov bu barədə açıqlama verib. O bildirib ki, məbləğ bilərəkdən 2 min dollar seçilib. Problemli kreditlərin sayı çox olduğundan hələ ki kiçik həcmli borclara baxılacaq: "Mübahisə tərəfi bir tərəfdən bank, digər tərəfdən isə fiziki şəxs və ya onun etibarnaməsi ilə təmin olunmuş səlahiyyətli nümayəndə ola bilər".

**Bank ombudsmanına müraciət olduqca sadədir:** "Vətəndaş müraciət üçün bankla bağladığı müqaviləni, şəxsiyyət vəsiqəsini, banka ünvanlanan şikayət ərizənin surətini və bankın arayışını təqdim etməlidir. Ombudsman işə müraciət Bakıdan edildikdə 1 ay, bölgələrdən olduqda isə 2 ay ərzində baxır. Xidmət ödənişsiz əsaslarla həyata keçirilir. Bank ombudsmanının qərarından narazı qalan tərəflər yenidən məhkəməyə müraciət edə biləcəklər".

Qeyd edək ki, hazırda 19 bank ombudsman xidmətinə qoşulub. Bank olmayan kredit təşkilatları ilə isə danışıqlar aparılır. Bank ombudsmanı İkram Kərimovun sözlərinə görə, gələcəkdə sığorta sahəsində yaranan problemlər də məhkəməyə getmədən mübahisələndiriləcək.

Ekspertlər də bank ombudsmanının fəaliyyətə başlamasını müsbət qiymətləndiriblər.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bank ombudsmanının fəaliyyəti bu sahədə müsbət dəyişikliyə səbəb olacaq:** "İkram Kərimov köhnə hakimdir, çox savadlı insandır. O, ömrü boyu məhkəmə sistemində işləyib, bacarıqlı bir insan kimi tanınır. İkram Kərimov bu işi yaxşı bilir. Banklar Assosiasiyası təxminən 17 bankdan ibarətdir, onlar özləri bunu fikirləşiblər. Artıq banklar bu məsələlərdə özləri də güzəştə getməyə hazırdırlar. Mən özüm də bu ay Qubada vətəndaşların müraciətlərini qəbul etdim, onların 15-i bankla əlaqədar idi. Mən bu məktubları banklara göndərdim və müsbət cavablar aldım. Banklar da artıq güzəştə gedirlər, faiz dərəcəsini aşağı salırlar, ayları uzadırlar. İkram Kərimov kimi təcrübəli bir mütəxəssisin banklarla vətəndaşlar arasındakı problemi həll etməyə çalışması bu sektora xeyir verə bilər".

**İqtisadçı ekspert Əkrəm Həsənov bildirdi ki, bu institut müstəqil yaradılsaydı, daha çox effekti olardı:** "Xeyli ölkədə bu institut var və maliyyə təşkilatları ilə istehlakçılar arasında vasitəçi və arbitr rolunu oynayır. Amma bunun üçün o, müstəqil olmalıdır. Lakin Azərbaycanda Banklar Assosiasiyasının yaratdığı bank ombudsmanı müstəqil deyil. Əsasnaməsinə görə, 5 il müddətinə təyin edilsə də, Assosiasiya hər an onu səbəbsiz vəzifəsindən azad edə bilər. Əmək haqqını da ona Banklar Assosiasiyası ödəyəcək, yəni banklar. Bu əsnada ondan hər hansı müstəqillik gözləmək əbəsdir. Birtərəfli olaraq bankların marağını qoruyacaq. Buna görə də inanmıram ki, real əməli iş görsün. Bununla belə, əlbəttə, vətəndaşlar ona müraciət edə bilər. Verdiyi qərar vətəndaşı qane etməsə, işə məhkəmə tərəfindən baxılmasını tələb edə bilər. Əslində ombudsman ona görə lazımdır ki, həm məhkəmələrin yükü azalsın, həm də bankların və istehlakçıların uzunmüddətli məhkəmə proseslərinə pulu və vaxtı getməsin".

**İqtisadçı vurğuladı ki, bizdə bu institut daha çox gözdən pərdə asmaq üçün yaradılıb:** "Buna görə də hər şey əvvəlki kimi qalacaq. Həm də fikir verin ki, ombudsman yalnız 2000 dollaradək olan kreditlər məsələsinə baxacaq. Əvvəla, niyə yalnız kreditlər? Əmanət üzrə də, pul köçürmələri üzrə də problemlər yaranır. Hətta müştərilərin bank kartlarından pullar da itir və s. Niyə ombudsman bu məsələlərə baxmayacaq ki? Ona görə ki, məqsəd birtərəflidir - sırf bankları maraqlandıran kredit məsələlərinin həlli. Özü də niyə 2000 dollaradək? Ona görə ki, belə xırda məbləğlər üzrə banklar məhkəməyə pul və vaxt sərf etmək istəmir: astarı üzündən baha olduğu üçün. Buna görə tez-tələsik ombudsman vasitəsilə həll etmək istəyirlər. Bu zaman milli valyutaya da növbəti hörmətsizlik edirlər. Axı niyə 2000 dollar? 3400 manat yazmaq olmazdı?"


İkram Kərimov

**İqtisadçı ekspert Rəşad Həsənov dedi ki, ombudsman fəaliyyəti daha kiçik mübahisələrdə, anlaşılmazlıqdan ortaya çıxan mübahisələrin həllinə istiqamətlənən bir fəaliyyətdir. Bu baxımdan, yanaşdıqda, 2000 dollar limitinin götürülməsi problemin əhatə dairəsini konkret müəyyənləşdirməyə kömək edər:** "Bank ombudsmanının fəaliyyətini düzgün qiymətləndirə bilməyən, onun hansı funksiyaları əhatə etdiyini bilməyən daha böyük kredit sahibləri bu institutun imkanlarından istifadə etməyə çalışa bilərlər. Bu da müəyyən mənada narazılıqlara gətirib çıxara bilər. Bu, müsbət qiymətləndirilməlidir. Çünki ombudsmanlar heç bir halda prosesin hüquqi tərəfini tam mənası ilə həll edə bilməz. Ona görə də böyük mübahisələrdə razılıqların əldə olunmasında çətinliklər ortaya çıxır. Bu gün məhkəmələrdə 750 mindən artıq kredit mübahisələri var. Məhkəmə institutu bu qədər işi qısamüddətli dövrdə həll edə bilmir. Elə kredit işləri olacaq ki, illərlə həllini tapmayacaq. Son nəticədə həmin vəsaitlər dövriyyədən kənarda qalır. Bank kredit götürən üzərində təzyiqi artırır. Belə bir şəraitdə vətəndaş, biznes subyekti və bank arasında bir körpü, eyni zamanda barışdırıcı tərəf, anlaşılmazlıqdan meydana gələn problemləri həll edən bir institutun olması növbəti dövrlərdə bu kimi problemlərin daha qısamüddətli dövrdə həll olunmasına gətirib çıxaracaq".

❑ **Nərgiz LİFTİEYVA**

# Yeni dərs ili başladı: ağlayan birincilər, sevinən valideynlər...

## Ölkə məktəblərində ilk dərs "Cocuq Mərcanlı-tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olunacaq

**Bu gün artıq yeni tədris il başlanır. "Bilik günü" həftənin son iş gününə təsadüf etsə də, məktəblilər məktəbə, tələbələr isə universitetlərə həvəslə gedirlər.**



Tədris ilinin ilk günü daha çox həyəcan keçirənlər həmişə ağlayaraq məktəbə gedən birincilər, tələbə adını yenicə qazananlar və sevinən valideynlər olur. Qeyd edək ki, bu il ümumtəhsil məktəblərinin I siniflərinə 164 min 945 şagird gedir. Bu rəqəm ötən illə müqayisədə artıb. Belə ki, 2016/2017-ci tədris ilində ölkə üzrə 164 min 33 nəfər şagird birinci sinfə getmişdisə, 2017/2018-ci tədris ilində belə uşaqların sayı 164 min 945 nəfər olacaq. Ümumilikdə isə bu il məktəblərə 1445049 şagird gedəcək. Onlardan 665806-sı qız, 779243-ü oğlandır. Təhsil Nazirliyinin məlumatına görə, ümumi təhsil müəssisələrində 2017-2018-ci tədris ilinin ilk dərs məşğələsi "Cocuq Mərcanlı-tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olunacaq.

Bu il yenicə müəllim adını qazananlara gəlincə isə müəllimlərin işə qəbulu üzrə müsabiqənin ikinci turu başa çatıb və 933 nəfər müəllim adını qazanıb. Ümumtəhsil müəssisələrində işləyən 125 müəllim bu mərhələdə iş yerini dəyişib. Qeyd edək ki, müsabiqənin birinci mərhələsi üzrə 4 min 454 nəfər müəllim adını qazanıb. Bu il 71 məktəb inşa edilib. Həmin məktəblərdən 61-i modul tipli məktəbdir. İlin sonunadək 44 rayon əhatə olunmaqla, 100 azkomplektli və qəzalı vəziyyətdəki kənd məktəbinin modul tipli məktəblərlə əvəz edilməsi nəzərdə tutulur. 12 məktəb binası əsaslı, 460 məktəb cari təmir edilib, 24 məktəb binasında isə cari təmir işləri davam etdirilir. 1 peşə, 1 uşaq-gənclər, 1 tədris-idman mərkəzi yeni tikilib. 3 ali təhsil müəssisəsinin kampusu və korpusu tikilib, əsaslı təmir olunub.

Qeyd edək ki, məktəblərin başlaması ilə istər metrolarda, istərsə də ictimai nəqliyyatlarda sıxlıq yaşanır. Məhz buna görə də sentyabrın 15-də yeni dərs ilinin başlanması ilə əlaqədar olaraq, yollarda təhlükəsizlik tədbirləri gücləndiriləcək. Artıq bütün məktəblərin ətrafı yol polisi tərəfindən nəzarətə götürülüb, məktəblərin yaxınlığına naryadlar təhkim olunub. Bu barədə **Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov** mətbuata açıqlamasında bildirib. O qeyd edib ki, məqsəd dərs ilinin başladığı gün yollarda sıxlığın yaranmaması, hərəkət axınını normal qaydada təşkil etmək və məktəblərin ətrafında yol hərəkəti təhlükəsizliyini təmin etməkdir: "Son illərin təcrübəsi göstərir ki, bəzən valideynlər övladlarını məktəbə gətirərkən avtomobili məktəbin qarşısında saxlamağa çalışır. Bir neçə belə valideynin səhvi ucbatından saatlarla tıxac yaranır, sıxlıq yaşanır. Xüsusilə bəzi valideynlər övladlarını birinci sinfə gətirərkən, onların avtomobilini bir neçə qohum-əqrəbanın avtomobili də müşayiət edir və əksər halda dayanma-durma qaydalarını pozurlar".

**V.Əsədov bildirib ki, qeyd edilənləri nəzərə alaraq, sentyabrın 15-də tədris müəssisələrinin yerləşdiyi ərazilərə bitişik küçə və yollarda təhlükəsizlik tədbirləri gücləndiriləcək:** "Yol polisi tərəfindən əlavə tədbirlərin həyata keçirilməsi ilə əlaqədar olaraq, sürücülərə müraciət edirik ki, məktəblər ətrafında süni sıxlığın, tıxacın, yol-nəqliyyat hadisələrinin baş verməməsi, eyni zamanda təhsil müəssisələri istiqamətində hərəkət edənlərin ləngiməməsi üçün avtomobil sahibləri qanunun tələblərinə əməl etsinlər. Əsasən avtomobillərin yolun ikinci hərəkət hissəsində saxlanmaması, dayanma-durma tələblərinin pozulmaması, ümumiyyətlə, parklanmaya düzgün əməl edilməsi vacib şərtdir və hər bir sürücüdən qaydalara əməl etmək tələb olunur. Unutmaq olmaz ki, avtomobili olmayanların, ictimai nəqliyyat vasitələrindən istifadə edənlərin övladlarının da təhsil almaq hüququ vardır və onların da məktəbə getmələrində ləngimə olmamalıdır. Buna görə də hər bir sürücü nizam-intizamlı olmalı, "Yol hərəkəti haqqında" Qanunun tələblərinə əməl etməli, ərazidə polis əməkdaşının xidmət aparıb-aparmamasından asılı olmayaraq, dayanma və durma tələblərini düzgün yerinə yetirməlidir".

Yay mövsümünün başa çatması və yeni tədris ilinin başlanması ilə əlaqədar metronun qrafikində də dəyişikliklər olacaq. "Bakı Metropoliteni" QSC sədri Zaur Hüseynov bununla bağlı əmr imzalayıb. Əmrə əsasən, payız-qış mövsümünün tələbləri nəzərə alınaraq, sentyabrın 18-dən metropolitendə qatarların hərəkətinin yeniləşmiş qrafiklə tənzimlənməsinə keçiləcək. Qeyd edilən qrafikə əsasən, qatarların hərəkəti daha da sıxlaşdırılır. Hərəkət gur saatlarda 30 cüt qatar ölçülərinə uyğun təşkil edilməklə, xətlərdəki qatarların sayı artırılacaq və interval azaldılacaq. Nəticədə "Həzi Aslanov-28 May"" sahəsində qatarlar arasında interval gur saatlarda 2 dəqiqəyə endiriləcək. Bu prinsiplə gur saatlarda xətlər üzrə hərəkətin bir-birindən ayrı təşkil edildiyi "28 May-Dərnəgül" və "28 May-İçərişəhər" sahələrində qatarlar arasında interval iki dəfə çox, yəni 4 dəqiqə olacaq. Bu müddətdə yalnız "Bakmil" stansiyasından qatarlar xəttə daxil olduğu zaman interval "Həzi Aslanov-Ulduz" sahəsində fərqli ola bilər.

Sərnişinlərin nəzərinə çatdırırıq ki, "Həzi Aslanov-28 May" sahəsində, sərnişin axınının tələbləri əsas götürülməklə, qeyri-gur saatlarda hərəkət intervalı 2,5 dəqiqə, sərnişinlərin əsaslı şəkildə azaldığı müşahidə olunan axşam saatlarından gecəyə doğru 3 dəqiqə və daha çox olur.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Bakı Qarabağ uğrunda bütün istiqamətlərdə hərəkətə keçdi

## Müdafiə naziri Zakir Həsənov İsraildə hərbi müzakirələri davam etdirir, XİN başçısı Elmar Məmmədyarov isə Nyu-York görüşünə gedir; işğalçı ölkə danışıqları pozmaq üçün növbəti təxribatlara əl atdığı məqamda Türkiyə ilə birgə təlimlərə start verilir

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin İsrailə rəsmi səfəri davam edir. Bu barədə "Yeni Müsavat"a Müdafiə Nazirliyindən məlumat verilib.**

Mətbuat xidmətindən bildirilib ki, səfərin növbəti günündə nazir bu ölkənin müdafiə sənayesinin aparıcı müəssisələrini ziyarət edib. Müdafiə sənayesi müəssisələrinin rəhbərləri ilə görüşən general-polkovnik Z.Həsənov hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparıb və müəssisələrin istehsal etdiyi hərbi təyinatlı məhsullarla tanış olub.

Xəbər verdiyimiz kimi, səfərin ilk günü Zakir Həsənovla İsrailin müdafiə naziri cənab Aviqdor Liberman arasında görüş keçirilmişdi. Nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə tərəflər regional təhlükəsizlik, ölkələrimiz arasında hərbi, hərbi-texniki və digər qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər. İsrailə rəsmi səfəri çərçivəsində müdafiə nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti İsrail Silahlı Qüvvələrinin Komanda və İdarəetmə Mərkəzində olub. Səfər zamanı ikitərəfli razılaşmaların əldə olunacağı şübhə doğurmur. Amma hələlik imzalanan sənədlər barədə rəsmi açıqlama verilmir. İsrail istehsallı silahların Azərbaycanın hərbi arsenalında əsas yeri tutduğunu həm dostlarımız, həm də düşmənlərimiz yaxşı bilir. Xüsusilə də ötən ilin aprelində Ermənistan ordusuna sarsıdıcı zərbələrin vurulmasında İsrail istehsalı olan pilotsuz uçan aparatların rolu danılmazdır. Ancaq Bakı Təl-Əvivdən daha sarsıdıcı silahlar almaqda qərarlıdır və İrəvan bugünlərdə ciddi təşviş keçirir.

Düşməni təşvişə salan daha bir təlimə start veriləcək. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Qartalı - 2017" birgə taktiki-uçuş təlimləri keçiriləcək. Sentyabrın 18-dən başlayacaq təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29, F-16, Su-25, C-130 Herkules, CASA CN-235 təyyarələri, Mi-35, Mi-17 və Sikorski S-70 helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək. Təlimlərdə hər iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək. Təlimlər sentyabrın 30-dək davam edəcək.

**Hərbi ekspert Tərlan Eyvazov "Yeni Müsavat"a dedi ki, müdafiə nazirinin İsrailə səfəri olduqca mühüm əhəmiyyətə malikdir:** "Ümumən Zakir Həsənov bundan əvvəl bir neçə dəfə Rusiyada rəsmi səfərdə olmuş, həmçinin yüksək səviyyəli rusiyalı hərbçilər Azərbaycanda səfərdə olmuşlar. Eyni zamanda NATO və Rusiya generallarının Bakıda ölkəmizdəki məxfi görüşləri ondan xəbər verir ki, Azərbaycan dünyanın böyük gücləri üçün olduqca maraqlıdır. Yəni bu, təkcə enerji qaynaqları ilə bağlı deyil, həm də Azərbaycanın regionda strateji və etibarlı bir tərəfdaş olması anlamını verir. İsrail səfərinə gəldikdə isə məlumdur ki, bu ölkədə müdafiə naziri olduqca mühüm bir postdur və ölkədə daha böyük vəzifə tutmaq istəyən siyasətçi mütləq bu posta yiyələnməyə can atır. Ölkəmizlə İsrail arasında isə artıq uzun müddətdir yaxın, iki tərəf üçün zəruri olan siyasi diplomatik, iqtisadi hərbi əlaqələr inkişaf etməkdədir. Bu əlaqələr İsrail üçün nə qədər vacibdirsə, bizim üçün də çox lazımlıdır. Bu ölkə inkişaf etmiş ölkədir. Heç kəsə sirr deyil ki, bu inkişaf əsasən ABŞ, Amerikada yaşayan, bu ölkənin daxili və xarici siyasətinə, iqtisadiyyatina bilavasitə təsir gücünə malik imkanlı yəhudilərin hesabınadır". **T.Eyvazov xatırlatdı ki, İsrail elmin, texnikanın, həmçinin hərbi texnologiyaların inkişafında böyük nailiyyətlər əldə edib:** "Təcrübədən görürük ki, oradan aldığımız silahlar doğrudan da çox effektli və müasirdir. Elə silahlar var ki, İsrail firmaları onu yalnız öz ordularına və bizə satıb. Kommersiya şərtləri isə çox uyğundur. Əgər Rusiya ilə müqayisə etsək, bəzən rus məmurları bizə hərdən keyfiyyətsiz silah və texnika sırımaq istəyirlər. Təbii ki, Azərbaycan mütəxəssisləri bunu vaxtında aşkar edib lazımi tədbirlər görürlər. Bəzən Rusiya tərəfi artıq bizə ehtiyac olmayan hərbi texnikanın alınmasında israr edir. Sonra da Ermənistanı incik salmamaq üçün onlara çox yumşaq şərtlərlə həmin silahlardan verir. Amma İsrail dövləti Ermənistanin bütün çabalarına baxmayaraq, hələlik belə addım atmayıb. Bu yaxınlarda isə İsrailin region ölkələri ilə əlaqə nazirinin Ermənistanda səfərdə olması sırf diplomatik protokol xatirinə idi. Təbii ki, belə əlaqələr olmalıdır və bəzi politoloqların kəskin reaksiyası başadüşülən deyil. İsrail-Azərbaycan əlaqələri bəzi İslam dövlətlərində qıcıq doğursa da, biz bu əlaqələrdən imtina edə bilmərik. Necə ki, həmin ölkələrin bizə düşmən Ermənistanla olan əlaqələrini anlaqla qarşılayırıq. Həm də biz İsraildən yalnız silah almırıq, həm də o ölkəyə çox böyük həcmdə məhsullar satırıq. Həmçinin onun qaz yataqlarının işlənməsi üçün texnologiya, təcrübə və mütəxəssislərimizlə kömək edirik". Hərbi ekspert şübhə etmir ki, Azərbaycan müdafiə naziri yəqin şəxsən öz sahəsinə aid olan məsələləri öz həmkarları ilə müzakirə edəcək, bu ölkənin istehsalı olan ən müasir silah və texnologiya ilə tanış olacaq, gələcək kommersiya müqavilələrinin bağlanması istiqamətində qərarlar verəcək.

**Politoloq Elxan Şahinoğlu də hesab edir ki, Zakir Həsənovun İsrailə səfəri uğurlu oldu:** "Əsas odur ki, iki ölkə arasında hərbi əməkdaşlıq davam edəcək. Doğrudur, erməni lobbisi çox çalışdı ki, bu əlaqələr pozulsun, hətta bu məqsədlə İsrail mətbuatında dezinformasiyaya əsaslanan yazıların yayınlanmasına nail oldu. Ancaq Zakir Həsənovun Təl-Əvivdə yüksək səviyyədə qəbulu ondan xəbər verir ki, İsrail hökuməti Azərbaycanla əməkdaşlıqdan məmnundur və bu əməkdaşlığın inkişafına çalışır. Düşünürəm ki, bu səfərin yekunu olaraq İsrail Azərbaycana yeni modern silahlar satacaq". **Ekspertin sözlərinə görə, bu arada, blogger Aleksandr Lapşinin sərbəst buraxılması həm prezident İlham Əliyevin humanist addımı kimi qiymətləndirildi, həm də Zakir Həsənovun İsrailə səfərinə müsbət təsir etdi:** "Məsələ burasındadır ki, Bakı Lapşini Rusiya vətəndaşı kimi deyil, İsrail vətəndaşı kimi sərbəst buraxdı. Ən önəmlisi odur ki, Aleksandr Lapşinə "Dağlıq Qarabağ Azərbaycanın ərazisidir" ifadəsini dedirtdik. Əlbəttə, Lapşinin daha sonra nələr deyəcəyini söyləmək çətindir, ancaq ən azı cəzasından azad olunmasını heç zaman unutmamalıdır".

Belə bir ərəfədə, xüsusilə də Azərbaycan müdafiə nazirinin İsraildə səfərdə olduğu müddətdə, üstəlik, BMT Baş Assambleyası çərçivəsində Azərbaycan və Ermənistan XİN başçılarının görüşünün keçirilməsi gündəmdə ikən işğalçı ölkə ordusunun Ağdamda hərbi təlimlər keçirməsi sözsüz ki, açıq təxribat cəhdidir. 2014-cü ilin payızında da, məhz BMT Baş Assambleyası keçirildiyi mövsümdə Ermənistan Ağdam istiqamətində təxribata əl atmışdı və döyüş vertolyotu ordumuz tərəfindən vurulmuşdu. Sanki düşmən növbəti dəfə danışıqlardan qaçmaq üçün vəziyyəti gərginləşdirmək istəyir.

**E.Şahinoğlu da razıdır ki, erməni ordusunun BMT sessiyası ərəfəsində işğal altındakı torpaqlarda hərbi təlimlərə başlaması təxribatdır:** "Bu ondan xəbər verir ki, İrəvan münaqişənin həllini arzulamır, tam tərsinə, status-kvonun davamına, yəni işğalın davamına çalışır. İrəvanın sülh yolu ilə torpaqlarımızı azad edəcəyini gözləmək əbəsdir. Buna görə işğalçıya təzyiqi davam etdirmək lazımdır. Bu, yeganə mümkün yoldur. İrəvan da bunu anlayır. Elə Zakir Həsənovun İsrailə səfəri də bu siyasətin tərkib hissəsidir, yoxsa Təl-Əvivə müdafiə naziri yox, xarici işlər naziri səfər edərdi".

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı isə bildirdi ki, düşmənin keçirdiyi hərbi təlim deyil:** "Onlar, sadəcə, döyüş atışlı məşqlər keçirirlər".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev də "Yeni Müsavat"a işğalçı ordunun təlim deyil, atəş hazırlığı keçirdiyini bildirdi:** "Amma sözsüz ki, bu, Ermənistanın növbəti təxribatdır. Xüsusilə də növbəti görüş ərəfəsində belə bir hərəkətə əl atılması təxribatdır. Bakı mütəmadi olaraq ATƏT-in sədrini, həmsədrləri düşmənin təxribatları barədə məlumatlandırır. Həmçinin ATƏT-in səhra köməkçisi vasitəsilə müvafiq qurumlar məlumatlar əldə edir. Bu, ənənəvi erməni siyasətidir. Həmişə növbəti görüşlər ərəfəsində belə təzyiq xarakterli təxribatlara əl atılır".

**Nyu-York görüşünün nə zaman keçiriləcəyinə gəldikdə, XİN rəsmisi dedi ki, görüşün vaxtı diplomatik kanallarla araşdırılır:** "Gündəlik bəllidir. ABŞ-ın Minsk Qrupundakı sabiq həmsədri Hoqland tərəfindən də münaqişənin həlli prinsipləri bir daha açıqlanıb. Həllin mahiyyətini həmin prinsiplər təşkil edir. Bunun da əsasını Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması təşkil edir". H.Hacıyev bildirdi ki, XİN rəhbəri hazırda Vyetnamdadır, ardınca Laosda səfərdə olacaq, oradan isə Nyu-Yorka gedəcək.

Amma bir məsələ diqqət çəkir. Qarabağ danışıqlarının növbəti raundu ərəfəsində Ermənistan daha bir təxribata hazırlaşır. Belə ki, Nyu-Yorkdakı ikitərəfli danışıqlara hazırlaşan Ermənistan XİN başçısı Eduard Nalbəndyan deyib ki, 10 ölkəni təmsil edən bloggerlər qrupu Dağlıq Qarabağa gələcək. Ermənistan parlamentindəki çıxışı zamanı Nalbəndyan bloggerlərin Dağlıq Qarabağdakı 15 sentyabrda keçiriləcək "14-cü araq festivalında" iştirak etməyə gələcəyini deyib. İddia edib ki, bəzi bloggerlər Qarabağın turizm potensialı barədə materiallar da hazırlayacaq. Bu faktın özü Ermənistanın Qarabağ siyasətində hər hansı dəyişiklik olacağına bəslənən ümidləri heçə endirir.

**Elə siyasi şərhçilər də bu fikirdədir. Politoloq Elxan Şahinoğlu bildirdi ki, BMT-də ayrıca Azərbaycanın irəli sürdüyü sənədin müzakirə ediləcəyini gözləmir:** "Buna baxmayaraq, BMT-də GUAM ölkələrinin ərazi bütövlüklərini dəstəkləyən sənədin qəbulu mümkündür. Problem ondadır ki, beynəlxalq təşkilatlarda Azərbaycanın xeyrinə qəbul edilən sənədlər münaqişənin həllini sürətləndirmir. Bu mənada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin BMT çərçivəsində görüşündən də nəticə gözləməyə dəyməz".

Gözləyək. Hər halda, Ermənistan BMT görüşünü əngəlləmək üçün növbəti təxribatlara əl atmasa, ən azı nazirlər foto çəkdirmək üçün bir araya gələcəklər.

**Bu arada Rusiyada səslənən mövqe də maraq doğurur. "Qarabağ münaqişəsi Moskva-Bakı geosiyasi oxunun möhkəmlənməsinə mane olur. Rusiya bu münaqişədə vasitəçi kimi çıxış edir və biz onun yenidən alovlanmasından qaçmağa çalışırıq. Lakin bizi bu gün status-kvo da qane etmir. Və mənə elə gəlir ki, indiki status-kvo heç münaqişə tərəflərinin özlərini də qane etmir". Virtualaz.org xəbər verir ki, bu sözləri Moskvada keçirilən və Rusiya-Azərbaycan münasibətlərinə həsr olunan konfrans zamanı rusiyalı ideoloq Aleksandr Duqin deyib. Politoloq qeyd edib ki, Ermənistan Qarabağı nəzarətdə saxlayır, lakin dünya ictimaiyyəti kimi Rusiya da Azərbaycanın ərazi bütövlüyünü tanıyır.** "Problemin güc yolu ilə həlli yoxdur. Lakin biz indi elə məqama gəlib çatmışıq ki, münaqişənin həllində irəli getmək lazımdır" - Duqin vurğulayıb. Hər halda, Putinin danışan dili sayılan Duqinin 5 rayon qaytarılmalıdır" açıqlamasının arxasında hansısa planın olduğu ehtimalı var. Rusiyadan səslənən bəyanat Avrasiya Birliyindən çıxmaqla bağlı Ermənistan parlamentindəki təşəbbüsə cavab da ola bilər. Bəlkə elə buna görə baş nazir Karen Karapetyan tez-tələsik deputatlar qarşısına çıxıb "Hazırda Ermənistanın Avrasiya Birliyindən çıxması məsələsi gündəlikdə deyil" açıqlaması verdi. Hər halda, Bakı həm sülh, həm də hərb müstəvisində işini görür. XİN başçısı Elmar Məmmədyarovun Nyu-York səfəri ərəfəsində müdafiə naziri Z.Həsənovun İsraillə hərbi müzakirələr aparması da bunun təsdiqidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# Xaricdən ət idxalının üç səbəbi: qiymət artımı gözlənilir

## Natiq Cəfərli: "Ola bilər ki, keçən il ölkəyə idxal olunan ətin bir qismi rəsmiləşdirilmirdi, ancaq bu il..."

**Azərbaycan ət idxalını kəskin artırıb. Dövlət Gömrük Komitəsinin açıqladığı statistikada bildirilir ki, 2017-ci ilin yanvar-avqust ayları ərzində ölkəyə statistik dəyəri 42 milyon 979,26 min dollar olan 28 min 249,77 ton ət idxal edilib ki, bu, ötən ilin analoji dövrü ilə müqayisədə 11 min 329,58 ton və ya 66,96% çoxdur.**



Məbləğ baxımından isə illik artım 22 milyon 603,53 min dollar və ya 2,11 dəfə olub.

Qeyd edək ki, 2016-cı ilin yanvar-avqust ayları ərzində Azərbaycana 20 mln. 375,73 dollar dəyərində 16 min 920,19 ton ət idxal edilib.

Bəs görəsən, ət idxalının bu qədər artmasının səbəbi nədir? İnsanlar daha çox ət istehlak etməyə başlayıb, yoxsa ölkədə ət istehsalı kəskin azalıb? Tələbatın qışa doğru daha da artmasını nəzərə alsaq, bahalaşma ola bilərmi?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, ət idxalının artmasının bir neçə səbəbi var:** "Birincisi, yerli istehsalda azalma müşahidə olunur. Çünki yem keçən ilin ortalarından etibarən kəskin azaldı. Bəzi fermerlər bu vəziyyətdən sonra fəaliyyətlərini dayandırdılar. Bazara çıxarılan mal-qaranın sayında azalma müşahidə olundu. Nəticədə ət qıtlığı yarandı və xaricdən idxal artdı. İkinci səbəb isə statistikanın aparılması ilə bağlıdır. Əvvəlki illərə nisbətən bu il gömrükdə daha ciddi nəzarət və hesabatlılıq mövcuddur. Ola bilər ki, keçən il ölkəyə idxal olunan ətin bir qismi rəsmiləşdirilmirdi, ancaq bu il daha ciddi şəkildə rəsmiləşdirilir. Ötən illə müqayisədə ət idxalının birdən-birə 70 faiz artmasının önəmli səbəblərindən biri də budur".

**İqtisadçının sözlərinə görə, üçüncü səbəb odur ki, daxili istehsal azalıb, istehlak isə nəinki həmin səviyyədə qalıb, turizmin inkişafı ilə əlaqədar daha da artıb:** "Çünki ölkəyə gələn turistlərin sayında bu yay ciddi artım müşahidə olundu. Ölkə əhalisinin istehlakından başqa, gələn qonaqların da ət istehlak etdiyini nəzərə alsaq, istehlakda artım müşahidə olunub. Yerli istehsal artmadığı üçün bu tələbatı qarşılamaq məqsədilə xaricdən ət gətirilməsinə üstünlük verilməli idi. Bu 3 səbəb idxaldakı 70 faizlik artıma gətirib çıxarıb".

**Natiq Cəfərli onu da vurğuladı ki, qışa doğru ətə tələbat daha da artacaq və Yeni il öncəsi ət bahalaşacaq:** "Səbəb isə odur ki, yay aylarında ət istehsalçıları yem alışına daha az vəsait xərcləyirlər. Təbiətin verdiyi imkanları, yaşıl otun olduğunu nəzərə alsaq, heyvanlar təbii yem hesabına qidalanır. Ancaq fəsil dəyişdiyi üçün yem alışı artmağa başlayacaq. Yemə tələbat artdıqca qiymət daha qalxacaq. Məlumata görə, bəzi rayonlarda yemin qiymətində artıq 2 dəfəyə yaxın artım var. Yemin qışa doğru daha da bahalaşması gözlənilir. Nəticədə ətin də qiymətində ciddi artım müşahidə olunacaq. Artıq dekabrın əvvəlindən başlayaraq ətin qiymətində 10-15 faizlik artım görə bilərik. Hazırda müxtəlif ərazilərdə ətin qiyməti müxtəlifdir. Bəzi yerlərdə 11 manat, bəzi yerlərdə 12-13 manata satılır, hətta 14 manata ət satılan yerlər də var. Qiymətdən asılı olmayaraq ətin satışında 2 manata yaxın artım gözlənilir".

❑ **Nərgiz LİFTİYEVA**



# Ərzaq məhsulları 18 faiz bahalaşıb-rəsmi

## Geyim və telefon aparatlarının qiymətləri isə ucuzlaşıb

**Bu ilin yanvar-avqust aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2016-cı ilin müvafiq dövrünə nisbətən 14,0 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 18,2 faiz, qeyri-ərzaq mallarının qiymətləri 12,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 9,6 faiz bahalaşıb.**

Bu barədə məlumatı Dövlət Statistika Komitəsi yayıb. Məlumata görə, cari ilin avqust ayında iyul ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,2 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 0,3 faiz, qeyri-ərzaq mallarının qiymətləri 0,1 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 0,2 faiz bahalaşıb.

Ay ərzində mal və qoyun ətinin, balıq məhsullarının, kolbasa məmulatlarının, pasterizə olunmamış üzlü südün, pendirin, kərə və zeytun yağlarının, albalının, gilasın, əriyin, qarpızın, çiyələyin, kələmin, göyərtinin, xiyarın, pomidorun, göy lobyanın, çuğundurun, sarımsağın, qəhvə və çayın qiymətlərində bahalaşma, unun, manna və qarabaşaq yarmasının, makaron məmulatlarının, toyuq əti və yumurtanın, günəbaxan və qarğıdalı yağlarının, bananın, almanın, armudun, alçanın, şaftalının, üzümün, badımcanın, bibərin, yerkökünün, kartofun, soğanın, şəkər və şəkər tozunun, tütün məmulatlarının qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində isə ciddi dəyişikliklər baş verməyib.

Avqust ayında iyul ayı ilə müqayisədə qeyri-ərzaq mallarından parçaların, ayaqqabıların, inşaat materiallarının, mebel və ev əşyalarının, məişət cihazlarının, kiçik elektrik cihazlarının, minik avtomobilləri və onlar üçün ehtiyat hissələrinin, velosipedlərin, dəftərxana ləvazimatlarının, zərgərlik məmulatlarının qiymətlərində bahalaşma, geyimin və telefon aparatlarının qiymətlərində ucuzlaşma müşahidə olunub. Digər qeyri-ərzaq mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Avqust ayında əvvəlki aya nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən paltarların təmizlənməsi, təmiri və kirayəsi xidmətinin, mənzillərin icarə haqqının, stomatoloji xidmətlərin, avtomobillərin təmiri xidmətinin, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma və taksi nəqliyyatı xidmətlərinin, ödənişli ali təhsil haqqının, bərbərxana və kosmetik xidmətlərin qiymətlərində bahalaşma, respublikadan kənara istirahət turlarının, dəmir yolu nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətinin, hotel və mehmanxanalar tərəfindən göstərilən gecələmə xidmətinin qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# Supermarketlərdə çəkiliş qadağası qanunidir, yoxsa...

## Eyyub Hüseynovun sözlərinə görə, dünyanın inkişaf etmiş ölkələrində belə qadağa yoxdur

**Son illərdə ölkədə supermarket, hipermarketlərin sayı sürətlə artmaqdadır. Bu cür böyük marketlərdə məişət üçün lazım olan müxtəlif növ, o cümlədən qida, xırdavat, elektrik, kosmetik, tütün, alkoqol və digər məhsullar satılır. Burada bəzi kiçik marketlərdə rastlaşdığımız "Alınan mallar geri qaytarılmır" kimi qadağalarla qarşılaşmırıq.**

Lakin bir qadağa bütün supermarketlərdə var: bu, şəkil və ya video çəkmək qadağasıdır. Alıcı istənilən supermarketə girib, hansısa məhsulun keyfiyyətini, qiymətini, görünüşünü məsləhətləşərək almaq və ya özü üçün araşdırmaq məqsədilə adi telefonla belə çəkmək istədikdə marketin əməkdaşları anında onun başının üstünü kəsdirir, çəkilişə icazə olmadığını bildirir, çəkilən şəkillərin silinməsini tələb edirlər. Bu cür hallarla daha çox jurnalistlər rastlaşırlar. Bəs səbəb nədir?

Məsələyə aydınlıq gətirmək üçün "Yeni Müsavat"ın əməkdaşı kimi yaxın ərazidə yerləşən bir neçə supermarketdə olduq. Elə bu dəfə də adi telefonla hansısa məhsulların şəklini çəkmək istəyəndə market işçiləri buna etiraz edib, çəkilişin qadağan olunduğunu bildirdilər.

**Səbəbini isə market rəhbərlikləri bu cür izah etdilər:** "Heç bir çəkilişə icazə yoxdur, qadağandır. Səbəbi isə müxtəlif məsələlərlə bağlıdır. Burada qiymət dəyərləri, şirkət və firmalar arasındakı rəqabət və sairə səbəblər var. Bu cür qadağa bütün supermarketlərdə tətbiq edilir".

**Azad İsteklakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a açıqlamasında məsələyə bu cür münasibət bildirdi:**

"Supermarketlər ayrı-ayrı qurumlardır. Onlar öz ərazilərində istənilən qadağanı qoya bilərlər. Lakin qadağa qoyulan ərazilərdə həmişə qeyri-şəffaflıq, cinayət əməlləri, istehlakçı hüquqlarının pozulması var. Düşünürəm ki, bu, biznes etikasına zidd bir davranışdır. Lakin bir daha qeyd edirəm ki, özəl qurum belə qaydalar tətbiq edə bilər. Məsələn, Nazirlər Kabinetinin 94 saylı qərarı var ki, satılan məhsulların üzərində maddi məsul şəxsin imzası olan qiymət sənədləri olmalıdır. Əks halda, dövlət orqanları tərəfindən həmin yer cərimə oluna bilər. Bəzən görürük ki, mağazalarda "Alınan mallar geri qaytarılmır" elanı asılır, bunlar hamısı qanunazidd hərəkətlərdir. Bəziləri bu cür qeyri-qanuni hərəkətlərinin ictimailəşməsindən qorxurlar. Ən brend markalı malların da satıldığı mağazalarda qanunsuzluqlar, qiymət siyasətinin pozulması halları var. Məhsulun üzərinə istədikləri qiyməti yazıb sonra da üzərindən xətt çəkirlər, guya ki, endirim var, halbuki heç də endirim edilmir.

Buna görə də aidiyyəti qurumlar qadağa qoyulan ərazilərə daha çox diqqət ayırmalıdır".



**Hüquqşünas Vüqar Babayev isə məsələyə hüquqi tərəfdən aydınlıq gətirdi:** "Supermarket də hansısa şəxsin mülkiyyətidir. Beləliklə, marketdə olan əşyalar həmin şəxsin ixtiyarındadır və buna görə də o, marketdə şəkil və ya video çəkməmək üçün qadağa qoya bilər. Buna görə qanunda nə mülkiyyətçi, nə də şəkil çəkən üçün hansısa məsuliyyət nəzərdə tutulmayıb".

Bəs bu cür qadağa təkcə Azərbaycanda tətbiq edilir, yoxsa?...

Eyyub Hüseynovun sözlərinə görə, dünyanın inkişaf etmiş ölkələrində supermarketlərdə şəkil çəkmək qadağası yoxdur.

Məsələ ilə bağlı kiçik araşdırma apardıq. Məlum oldu ki, İranda heç bir supermarketdə şəkil çəkmək qadağası yoxdur. Tehranda yaşayan bir soydaşımızın sözlərinə görə, bu cür qadağa yalnız brend markalı geyim mağazalarında olur. Qadağanın səbəbi isə yeni modellərin başqa firmalar tərəfindən plagiat edilə biləcəyi təhlükəsi ilə bağlıdır.

Eləcə də qardaş Türkiyə dövlətində adətən bu cür qadağaya rast gəlinmir.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# Roma Papası Kolumbiya səfərində iki dəfə ölümdən döndü

## Əvvəl təyyarəsi "İrma" qasırğasına düşdü, sonra avtomobili qəza törətdi

**Roma Papası 1-ci Fransisk dəfələrlə "tale zərbəsi" almağı ilə məşhurdur. İlk təsdiq olunmuş, foto-telekameralar tərəfindən qeydə alınmış tale zərbəsinə o, 11 fevral 2013-cü ildə məruz qalıb. Məhz bu tarixdə əvvəlki papa 16-cı Benedikt qəfil öz istefasını elan edir. Uca göylər biganə qalmır bu istefaya.**

Elə həmin gecə öz ildırım zərbələrini Katolik kilsəsinin Romadakı baş məbədinə-Müqəddəs Pavel kilsəsinin uca qülləsinə sancırlar. Hadisə iz-siz-filansız ötüşmür. Düşür jurnalistlərin fotokameralarına. Dünya mətbuatında əsl sunami dalğası qalxır: "Göylər, katoliklərə xəbərdarlıq göndərir, deyəsən. Növbəti papanı çətin günlər gözləyir".

2013-cü ilin 13 martında-çox nəhs bir gündə növbəti Roma Papası 1-ci Fransisk Vatikana daxil olub girişir əvvəlcə maliyyə reformalarına. Vatikan bankının ("Istituto per le Opere di Religione") "uzun qulaqlarından" yapışıb məcbur edir tarixində ilk dəfə mətbuata maliyyə hesabatı versin. 2014-cü ildə proses lap dərinləşir. Bank rəhbərliyi maliyyə fırıldaqlarında ittiham edilərək əvəzlənir. 2015-ci ildə 1-ci Fransiskin xüsusi icazəsi ilə bu maliyyə yoxlamalarına dünyəvi audit şirkəti "Pricewaterhouse Coopers" qatılır. Hesabat bu gün də dəmir seyflərdədir. Nəşri zamanın siyasi sifarişindən asılıdır.

***

Tale zərbəsindən sonra növbə gəlib çatır fiziki zərbəyə.

Papanın on gün əvvəl başlanan Kolumbiya səfəri elə ilk saniyələrindən ciddi müqavimətlə üzləşir. Özü də bilmək olmur bu, taleyin müqavimətidir, yoxsa pərdəarxası maliyyə qurumlarının. Papa təyyarəsini



Karib hövzəsində əvvəlcə okean qasırğası "İrma" haqlayır. Məcbur edir təyyarə öz əvvəlki marşrutunu dəyişsin.

Təyyarəni Boqota aeroportunda qarşılayanlar bir müddət ağızdualı qalırlar. Papanı sağ-salamat görəndə "şükür" deyib ovuclarını havaya qaldırırlar.

Beş gün çəkən səfərin ilk günlərində heç nə irəlidəki təhlükədən xəbər vermirdi. Səfərin hədəfi sadə imiş - solçu FARK partizanları ilə iqtidar yanlılarını danışıq masası arxasında otuzdurmaq.

Düzü, Latın Amerikası solçuları 1-ci Fransiskə çox da üz verməzlər. Deyərlər o, Argentina yepiskopu ikən ölkədəki çox saylı cinayətlərə göz yumub. Xunta tərəfindən hətta keşişlərin oğurlanıb öldürülməsinə belə etiraz etməyib.

Bu və ya digər sərt ittihamlar səfərin axırıncı günü mistik mənada 1-ci Fransiski cəzalandırır bir növ. Kartaxena şəhərindəki yetimlər evinə tələsərkən papa qəfil öz "papamobil"ində qəza keçirir. Qəfil, yetimlərdən biri özünü atır avtomobilin təkərləri altına. Sürücü məcbur qalır ayağını əyləcə bassın. Müvazinətini saxlaya bilməyən papa gedib girir avtomobilin ön şüşəsinə. Nəticədə görürlər bıy... bu nədi belə? Papanın qaşı çərtilib, gözünün altı göyərib. Bu sifətdə də 1-ci Fransisk məcbur qalır Kolumbiya yetimlərini salamlasın. Mühafizə rəhbəri Domeniko Canni öz istefasını gətirir gözü qarşısına. Mətbuat rəhbəri Qreq Berq jurnalistlərə 1-ci Fransiskin kiçik açıqlamasını ötürür bu tale zərbəsi haqqında: "Məni gözümdən vurdular burda. Sağlığıma şükr edirəm".

"Associated Press" xəbər agentliyinin verdiyi məlumata görə, səfərdən az əvvəl İŞİD mənsubları dövri mətbuata açıqlama veriblər. Guya deyiblər ki, "papa, öz canını bizdən qurtara bilməyəcək. İndidən gedib özünə məzar yeri axtarsın".

Vatikanın baş katibi Pyetro Parolin istehza ilə cavablandırıb bu hədə-qorxuları. Deyib "bizdə olan məlumatlara görə, papanın həyatına təhlükə yoxdur".

İndi özünüz düşünün. Hansı laməkan qüvvə 1-cı Fransiskın qaşını yarıb, ağ əbasını qan ləkələri ilə bəzəyib? Gözünün altını qaraldıb əməlli-başlı? Yəni...

Yəni İŞİD-çilər qiyabi şəkildə bax bu cür də cəzalandıra bilirlər öz növbəti qurbanlarını?

Vatikan ağzına su alıb susur bu barədə. Qorxudan cınqırı çıxmır.

Doğrudan da nə sərt imiş, dəqiq imiş talenin ağır zərbələri...

**Hadisənin videosu: https://video.rambler.ru/kanal/novosti-moskva-24/papa-rimskiy-poluchil-sinyak-pod-glazom/**

❑ **Həmid HERİSÇİ**

# Müxalifət dirçəlmək istəyir - yeni birlik müzakirələri

**İqbal Ağazadə:** "Blok yaratmağın fayda verəcəyini düşünmürəm, amma..."

**Pənah Hüseyn:** "Təşəbbüs göstərilsə..."

**Payız fəsli yaxınlaşdıqca ölkə müxalifətinin fəaliyyətində canlanma müşahidə olunur. Yay passivliyini demokratik düşərgə geridə qoymaqdadır. Bunu siyasi partiyaların keçirdikləri tədbirlərlə, birliklərin fəaliyyətlərini yenidən bərpa etmələri ilə izah etmək olar.**

Sentyabrın 13-də KXCP qərargahında partiya sədri Mirmahmud Mirəlioğlu, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, Azadlıq Partiyasının sədri Əhməd Oruc arasında görüş keçirilib. Görüşdə ölkədəki ictimai-siyasi vəziyyət müzakirə olunub, uzun müddətdir fəaliyyətini dayandıran Siyasi Partiyaların Əməkdaşlıq Mərkəzinin bərpası qərara alınıb. Maraqlıdır ki, digər siyasi qurumlar iclasda iştirak etməyiblər. Yalnız üç liderin iştirakı ilə mərkəz bərpa olunub.

**KXCP sədri M.Mirəlioğlu** "Yeni Müsavat"a açıqlamasında iclasda mərkəzin bərpası, fəaliyyətinin genişləndirilməsi, qarşıdakı zamanlardakı planlarının müzakirə edildiyini bildirdi. Digər müxalif qurumların nə üçün iclasda iştirak etməmələri ilə bağlı sualımızdan partiya sədri demək olar ki, yayındı: "Uzun müzakirələrdən sonra bu nəticəyə gəlinmişdi. Yəqin ki, bu və ya digər səbəblər var idi. Bu da zamanında açıqlanar".

Bundan əlavə, digər siyasi partiyalar var ki, yeni birliklərin yaradılması təşəbbüsü ilə çıxış edirlər. Əvvəllər fəaliyyət göstərən və hazırda fəaliyyətsiz olan blokların da bərpasının vacibliyi barədə çıxış edənlər də var. Mitinq təkliflərini irəli sürən müxalif qurumlar da var.

**Vaxtilə ADP ilə birlikdə "Qarabağ" bloku yaradan Ümid Partiyasının sədri İqbal Ağazadə qurumu bərpa etmək fikrində olmadıqlarını bildirdi:** "Heç bir blokda təmsil olunmuruq. Amma funksional əməkdaşlığı partiyalarla davam etdiririk. Siyasi Partiyaların Əməkdaşlıq Mərkəzində təmsil olunanlar da dostlarımızdır. Gələcəkdə orada olub-olmamağımıza baxarıq, indiki mərhələdə bu barədə düşünmürük. "Qarabağ" bloku bir dönəm fəaliyyət göstərib. Amma indi "Qarabağ" bloku bir tarixdir. Partiyalar arasında funksional əməkdaşlığın normal şəkildə təşkil olunması böyük fayda verərdi. Blok yaratmaq tezdir. İndiki mərhələdə münasibətlərin bu şəkildə olduğu vaxtda blok yaratmağın fayda verəcəyini düşünmürəm. Amma davamlı və sistemli funksional əməkdaşlıq böyük fayda verər".

**AXP sədri Pənah Hüseyn birliklər yaratmaq, yaxud vaxtilə fəaliyyət göstərmiş qurumları bərpa etməyin siyasi partiyaların hüquqları olduğunu söylədi:** "Hər bir partiyanın öz daxili işi var. Hansısa bir partiyanın ünvanına nəsə deməyi doğru saymıram. Bizim də təmsil olunduğumuz antiböhran koalisiyası xeyli vaxtdır fəaliyyət göstərmir. Faktiki olaraq koalisiya hazırda mövcud deyil. Birliyin bərpa olunması gündəmimizdə deyil. Əvvəlki aylarda KXCP qərargahında siyasi partiya liderləri toplanırdıq. Qurum olmasa da, məşvərət xarakterli idi. Baş verən müəyyən məsələlərlə bağlı fikir mübadiləsi aparırdıq. Yayda bu cür iclaslara bir qədər ara verdik. İndi təşəbbüs göstərilsə, yenə toplanarıq. Amma bu, institutlaşmış format deyil".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan beynəlxalq təşkilatlara nə qədər vəsait ödəyir?

## **Ekspert:** "Bu vəsait dövlətlərin əhalisinin və ərazisinin sayından asılı olaraq dəyişir"

**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) ilə Rusiya arasında münasibətlər gərgin olaraq qalır.**

Rusiya özünün deputatlardan ibarət nümayəndə heyətinin AŞ PA-nın işində iştirak etməməsi səbəbindən, Avropa Şurasının büdcəsinə üçüncü ödənişi etməyi dayandırıb. Söhbət 11 milyon avroya yaxın vəsaitdən gedir. Donbas və Krımda baş verən hadisələrlə əlaqədar olaraq 2014-cü ilin aprelində Rusiyanın bu təşkilatdakı nümayəndə heyəti əsas səlahiyyətlərdən məhrum edilib.

Bəs Azərbaycan AŞ PA-ya




illik vəsait ödəyirmi?

"Yeni Müsavat"a danışan **politoloq Elxan Şahinoğlu** ilk olaraq AŞ PA ilə Rusiya münasibətlərindən danışıb. Politoloq bildirib ki, Ukrayna mövzusu davam etdikcə, Rusiyaya qarşı sanksiyalar da davamlı olacaq: "Əlbəttə ki, Rusiyanın tamamilə AŞ PA-dan imtina edəcəyinə də inanmıram. Rusiyanın üzvlüyü ilə bağlı AŞ PA-nın özündə də məsələ qaldırıla bilər. Ona görə də düşünürəm ki, hansısa konsensus şəklində danışıqlar aparıb, məsələni yoluna qoyacaqlar. Rusiyanın AŞ PA üzvlüyündən çıxarılması Avropa Şurasının da xeyrinə deyil. Ödənişə gəlincə isə qeyd edim ki, hər bir beynəlxalq təşkilata üzvlük haqqı verilməlidir. BMT-də bu, belədir. Məsələn, BMT-nin Təhlükəsizlik Şurasının beş üzvü hər kəsdən çox pul ödəməlidir. Bu vəsait sülhməramlı qüvvələr, orada çalışan işçilərin maaşlarının verilməsi və digər bu kimi texniki məsələlər üçün lazımdır".

**Politoloq bildirib ki, ümumiyyətlə, bütün beynəlxalq təşkilatların özlərinin müəyyən büdcələri olur:** "Büdcəni də formalaşdırmaq üçün həmin təşkilata üzv olan dövlətlər hər il pul ödəməlidirlər. Avropa Şurasında da eyni sistem işləyir. Çünki Avropa Şurası böyük bir bürokratik aparatdır. Oranın işçilərinin sayının çox olması ilə yanaşı, monitorinq qrupları da yaradılır. Bu qrupların səfərlərinə də vəsait lazım olur. Ona görə də ümumi büdcənin formalaşması üçün Azərbaycan da daxil olmaqla, hər bir dövlət pul ödəyir. Bu vəsait isə dövlətlərin əhalisinin və ərazisinin sayından asılı olaraq dəyişir. Təbii ki, Azərbaycan ora Rusiya kimi 11 milyon avroya yaxın vəsait ödəmir. Çünki Azərbaycanın əhalisi az, ərazisi isə Rusiya ilə müqayisədə çox kiçikdir. Azərbaycanın eyni zamanda həm BMT-də, həm də Avropa Şurasında üzvlük haqları çox kiçik olar. Ümumiyyətlə, vəsaitlər həmin təşkilatlara üzvlük haqqı formasında ödənilməsə, onların fəaliyyətləri də iflic olar. Azərbaycanla AŞ PA münasibətlərinə gəlincə isə onu qeyd edim ki, biz indiyədək elə yerimizdə sayırıq. Nə çox irəliləyiş var, nə də münasibətlərdə geriləmə müşahidə edilmir. Qarabağla bağlı AŞ PA-nın qəbul etdiyi qətnamələr birmənalı şəkildə deyərdim ki, Azərbaycanın xeyrinədir. Bizim də əsas problemimiz elə Qarabağdır. Ancaq insan haqları, demokratiya ilə əlaqədar qəbul edilən qətnamələr Azərbaycan hakimiyyətində narazılıq yaradır ki, bu da münasibətlərin gərginləşməsinə səbəb olur. Lakin onu da qeyd etmək lazımdır ki, Rusiyadan fərqli olaraq, hər halda, Azərbaycanın Avropa Şurası ilə gərgin münasibətləri yoxdur. İkitərəfli əməkdaşlıq hər iki tərəfin xeyrinədir".

Onu da qeyd edək ki, Azərbaycanın 2015-ci il dövlət büdcəsindən beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri üzrə 162,2 mln. manat vəsait istifadə olunub. Bu vəsaitin 9,1 mln. manatı Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq ictimai-siyasi təşkilatlara üzvlük haqqına yönəldilib.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 190 (6804) 15 sentyabr 2017

# "Leyla Şıxlinskaya" klinikası haqqında şok iddia

## Gənc ananı dəli edib, ayağını yaraladılar, həkim isə iddiaları təkzib edir...




**Paytaxtın məşhur klinikalarından olan "Leyla Şıxlinskaya" klinikası haqqında şok ittihamlar ortaya çıxıb. Belə ki, Arzu Kamilova adlı Bakı sakini redaksiyamıza müraciət edərək bildirib ki, bu yaxınlarda 3-cü dəfə ana olan bacısı Kəmalə Atakişiyeva klinikanın həkimlərinin səhvi ucbatından ağlını itirib, ayağı yaralanıb.**

**Şikayətçi deyir:** "17 iyul tarixində bacım adıçəkilən klinikada qeysəriyyə əməliyyatı oldu. Bundan əvvəl də bacım iki dəfə qeysəriyyə əməliyyatı olunub, iki övladı var, sağlam və normal qadın idi. Klinikada əməliyyat olunduqdan sonra Kəmalə Atakişiyeva komaya düşdü. Guya onu komadan ayıltmaq üçün ayağına isti "qrelka" (istiqac) qoyulub. "Qrelka"nı necə qoyublarsa, iki aydır hələ də ayağından irin gəlir. Koma vəziyyətində olan bacımı bu dəfə ayağına görə ikinci dəfə əməliyyata almağa məcbur olublar. İkinci dəfə əməliyyata girdiyi üçün bacımda psixi pozğunluq yaranıb, hazırda bircə öz adını tanıyır. Beyni yaxşı işləmir, huşu yerində deyil, üstəlik, ayağı yanıq vəziyyətindədir. İki aydır müalicə alır, lakin nəticə yoxdur və heç bir xəstəxana onu yaxına buraxmır".

**Şikayətçinin sözlərinə görə, klinika rəhbərliyi hədə-qorxu ilə ağır vəziyyətdə olan xəstəni klinikadan çıxarıb:** "Xəstəxana işçiləri bizdən tələb etdilər ki, xəstəni çox saxlamağa ixtiyarları yoxdur, təcili çıxartmalıyıq. Buna görə hətta bizi hədələdilər, bildirdilər ki, yoxsa polis çağıracaqlar. 38 yaşlı üç uşaq anasını dəhşətli hala salıb, sonra da onu təcili çıxartdırlar. Bu, hansı qanunda yazılıb?"

**Arzu Kamilova məsələ ilə bağlı aidiyyəti orqanlara müraciət etdiyini, lakin heç bir nəticəsi olmadığını bildirir:** "Səhiyyə Nazirliyinin qaynar xəttinə müraciət etdik, ordan bildirdilər ki, klinika özəl olduğundan yazılı müraciət etməliyik. Lakin yazılı müraciət etsək də, hələ də nazirlikdən cavab yoxdur. Bacımın əməliyyatları və müalicəsi üçün üst-üstə 30 min xərcimiz çıxıb, halbuki bir tək qeysəriyyə əməliyyatı olunmalı idi. Bunun üçün də 1500 manat tələb etmişdilər. Bütün xərcləri özümüz çəkdik, iynə-dərmanları da özümüz aldıq, üstəlik, üç uşaq anası hazırda dəlidir, ayağı da yaralıdır, yeriyə bilmir. Bu qədər vəhşilik, özbaşınalıq olarmı? Bir daha qeyd edim ki, bacıma bu vəziyyətdə başqa klinika və xəstəxananın həkimləri yaxın durmur. Bizə deyirlər ki, ayağının yarası dərindir, təhlükəlidir..."

**Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı "Leyla Şıxlinskaya" klinikası ilə əlaqə saxlayıb. Klinikanın baş həkim müavini Nuriyyə Qədirova olaya bu cür aydınlıq gətirib:** "Kəmalə Atakişiyeva 17 iyul tarixində bizim klinikada əməliyyat olunarkən dölyanı suların emboliyası olmuşdu. Bu isə 100 faizlik ölüm deməkdir. Buna baxmayaraq, bizim həkimlərimiz hamımız birlikdə çalışaraq xəstəni faciədən qurtardıq. Dölyanı suların emboliyasından sonra mütləq qan laxtalanması ilə bağlı problemlər yaranır. Yəni qan laxtalanmır. Biz bilirdik ki, belə olacaq, ona görə təcili xəstəyə qan köçürdük, çox çətinliklə onu vəziyyətdən çıxartdıq. Qadın koma vəziyyətində deyil, huşsuz idi. Vaxtaşırı suallarımıza cavab verirdi. Reanimasiya şöbəsində onun müalicəsini davam etdirirdik".

**Baş həkimin müavini xəstənin ayağının "qrelka"dan yanmasını təkzib edib:** "Xəstənin ayağının dərisi tropmdan pis vəziyyətə düşmüşdü və həmin dəri hissə götürülmüşdü, əməliyyat olunmayıb. Biz xəstəyə də bildirdik ki, gələcəkdə kosmetik əməliyyatla onu aradan qaldırmaq olar. Ayağı hazırda yavaş-yavaş sağalır. Həkim bildirmişdi ki, yeni dəri üçün kosmetik əməliyyatdan ötrü hələ 10-15 gün gözləməlidir. Hazırda demək olar ki, xəstə dərman qəbul etmir, huşu üstündədir".

**Nuriyyə Qədirova digər ittihamları da təkzib edib:** "Bizim əməkdaşlarımız onun saçını darayır, dırnağını tutur, paltarını dəyişirdilər. Hətta ağır vəziyyətdən çıxartmaq üçün əməkdaşlarımız da əlavə qan vermişdi. Xəstə klinikada 25 gündən çox qalmır, bilirsiz ki, bütün bunların hamısı pul deməkdir. Təkcə 1 ay yarım qalması 16 min manata başa gəlir. Biz isə xəstənin yaxınlarından 5 min manat almışıq, digər xərcləri tələb etməmişik. Bu haqda xəstəxananın qeydiyyat kitabından tanış ola bilərsiz. Üstəlik, onun vəziyyəti yaxşı idi və 12 sentyabr tarixində evə buraxdıq, özü öz ayağı ilə getdi. Yəni onun klinikada qalmasının bir mənası yox idi. Bəli, əməliyyatdan sonra xəstədə nevroloji problemlər yaranıb. Nevropatoloq həkim də ona bildirdi ki, nevroloji problemləri bir il ərzində düzələcək. Qadının yeni doğulan körpəsindən başqa 2 uşağı var. Onun bundan əvvəl də nevroloji problemləri olub. Həmin problemlər tam aradan qalxmayıb. Ona ilk növbədə nevroloji müalicə lazımdır. Bizim xəstəxanada nevroloji həkim olmadığından məsləhət bildik ki, başqa xəstəxanada müalicə olunsun".

❑ **Xalidə GƏRAY**

# Azərbaycanda qadağan olunmuş dini ədəbiyyat: orada nələr yazılıb?

## Yasaqları şərh edən ekspertlər siyasi amilli də qeyd edirlər

**Qəbələ rayonunda keçirilən əməliyyat nəticəsində çoxlu dini kitab və disklər aşkarlanıb. Daxili İşlər Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, Qəbələ Rayon Polis Şöbəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin rayon şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə sentyabrın 12-də dini radikalizmi təbliğ etməkdə şübhəli bilinən Vəndam qəsəbə sakinləri Bəhruz Qasımovun və Elman Tahirovun evlərinə baxış keçirilib.**



Baxış nəticəsində oradan yayılması qanunla qadağan olunmuş ümumilikdə 77 ədəd dini təyinatlı ədəbiyyat, 11 ədəd video və audiokaset, 14 ədəd CD disk və 1 ədəd kustar üsulla hazırlanmış xəncər aşkar edilərək götürülüb.

Bəs Azərbaycanda qadağan olunmuş ədəbiyyatlar hansılardır? Onlar nə üçün yasaqlanıb?

Öncə qeyd edək ki, müxtəlif növ ədəbiyyatların dünya ölkələrində qadağan olunması halları tarixən və indi də müşahidə edilməkdədir. Azərbaycanda da sovet dönəmində bir sıra yerli yazarların kitablarına qadağa qoyulmuşdu. Buna səbəb həmin kitablarda o dövrün "qaydaları"na zidd fikirlərin, ideyaların yer alması idi. Müstəqillik illərimizdə isə qadağan olunmuş kitablar daha çox dini ədəbiyyatlardır.

Məsələn, hazırda ölkədə "Vəhhabiliyin ayinləri", "Risaleyi Nur","Yehova Allahın padşahlığını bəyan edir", "Günahın acısı", "İmam Rzanın həyatı", "Ali İmran", "Şiə və əsassız ittihamlar" kimi ədəbiyyatlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən qadağan elan olunmuş kitablardır. Bu kitabların Azərbaycana gətirilməsi də yasaqlanıb. Buna baxmayaraq, müxtəlif dini cərəyanları təbliğ edən şəxslər gizli yollarla bu kitabları ölkəyə gətirərək yayırlar.

**"Yeni Müsavat"a mövzu ilə bağlı danışan Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc bildirdi ki, bu kitabların indi də ölkəyə gətirilməsi halları tez-tez müşahidə olunur:** "Hörmətli həmkarımız Mübariz Qurbanlının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə təyinatından sonra istər parlament üzvlərində, istərsə də dövlət təmsilçilərində daha aydın baxış formalaşıb ki, ölkəmizə hansı dini inhisarlıq fəaliyyəti uzanır. Həmçinin burada kimlər yer alır, hansı xarici kapital rol oynayır və xarici dövlətlərin maraqları nədən ibarətdir. Şübhəsiz ki, bu gün müasir dünyada ağıllı telefonların hökmranlıq etdiyi zamanda "qadağan olunmuş ədəbiyyat" ifadəsi bir qədər şərti xarakter daşıyır. Yəni hər kəs maraq dairəsinə aid olan ədəbiyyatları çox asanlıqla elektron formada əldə edə bilir. Bir tərəfdən isə reallıq bundan ibarətdir ki, hələ də çap ədəbiyyatları yayılır və ləğv edilməyib. Xüsusilə də yaşlı kəsimi və gəncləri öz yemlərinə çevirmək üçün bu kitablardan istifadə edirlər. O baxımdan, istər İrandan, Səudiyyə Ərəbistanından, həmçinin Türkiyənin də bəlli dini qollarından ölkəmizə ədəbiyyatlar gətirilməkdədir. Elmi-tarixi məcmuədə yazılmış əsərlərin böyük bir hissəsi məzhəb ayrı-seçkiliyini optimallaşdırır. Onu da qeyd edim ki, Avropadan da Azərbaycana çoxlu ədəbiyyatlar gətirilir. Onlar isə xristianlığın içərisindəki müxtəlif qolların təbliğatını aparırlar. Gerçək İslam dininin öyrədilməsi hazırkı dövrdə bizim də dövlətimizin qarşısında mühüm bir vəzifə kimi dayanır. Reallıqda Quran vahiddir və Məhəmməd Peyğəmbərə səmavi kitab kimi göndərilib. Ancaq necə olur ki, Səudiyyə Ərəbistanında bir, Türkiyədə iki, İranda isə sanki üçüncü bir Quran öyrədilir. Necə olur ki, bu ölkələrin vahid bir iqtisadi, siyasi, mədəni mövqelərini görə bilmirik. Din nə üçün bunları belə ayırıb? Deməli, İslam dini vahiddir, lakin onun interpretasiyası ayrı-ayrı ölkələrin, siyasi dairələrin əlində fərqlidir və bu da ideologiyaya çevrilməkdədir".

**Z. Oruc bildirib ki, Azərbaycan İslam dininə görə hazırda bir çox ölkələrdən daha dünyəvidir:** "Hətta qardaş Türkiyə ilə müqayisədə də bu, belədir. Onların son dövrlər təhsil sisteminə tətbiq etdikləri modellər dediklərimizə əlavə sübutdur. Qadağan olunmuş ədəbiyyatların ölkəmizə gətirilməsi bu gün də davam etməkdədir. Bizdə olan məlumata görə, bu cür fəaliyyəti həyata keçirən şəxslərə və qurumlara qarşı sərt tədbirlər görülür. Ancaq bir həqiqəti başa düşmək lazımdır ki, yalnız inzibati yol səmərəli deyil. Burada maariflənmə, təhsil sisteminin yaxşı qurulması, cəmiyyətin mövhumata getməməsi də əsasdır".

**Təhlükəsizlik üzrə ekspert Sülhəddin Əkbər isə qəzetimizə bildirdi ki, istənilən ölkədə bu və ya başqa səviyyədə belə yanaşmalar var:** "Sadəcə olaraq, bu, həmin ölkənin rejimi və təhdid dəyərləndirməsi ilə bağlıdır. Əgər hansısa dövlətin mövcud rejimi dini radikalizmi, ekstremizmi, zorakılığa çağırışı təhdid kimi dəyərləndirirsə, bunu öz konstitusiyası və qanunvericiliyində qadağan edirsə, təbii ki, buna uyğun olaraq Cinayət Məcəlləsində müvafiq cəzalar nəzərdə tutur. Azərbaycanda da bu cür məhdudiyyətlər var. Həm Azərbaycan Konstitusiyasına, həm də qanunlarına zidd olan, xüsusilə də dini ayrı-seçkiliyi, radikalizmi, terrorizmi bu və ya başqa şəkildə qızışdıran, dəstəkləyən ədəbiyyat qadağan olunur. Burada başlıca məqsəd qeyd etdiyimiz sahələrdə pozuculuq fəaliyyətinin qarşısını almaqdır. Ancaq xüsusilə də bəzən antidemokratik ölkələrdə bundan sui-istifadə edirlər. Bu isə din və vicdan azadlığının pozulması, insan haqlarının tapdanmasına gətirib çıxarır. Gərək dövlət incə cizgini gözləsin".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 290 (6804) 15 sentyabr 2017




# Mübahilə günündə baş verən tarixi dönüş

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Zilhiccə ayında olan mühüm tarixlərdən biri Mübahilə günü ilə bağlı məsələlərdir. Bu gün - öz əhəmiyyətinə, öz fəlsəfəsinə görə əslində İslam tarixində çox böyük yer tutur. Bu gün - müəyyən mənada İslamın son din olaraq təsdiqinə aiddir və digər tərəfdən, insanların Əhli-Beyti (ə) tanımasına, düzgün seçim etməsinə xeyli dərəcədə yardım edən bir fenomendir.**

## Mübahilə nədir?

"Mübahilə" - qarşılıqlı nifrin etmə mənasına dəlalət edən bir məfhumdur. Bu tarixi olay, Həzrət Peyğəmbərin (s) axırıncı peyğəmbər olaraq, Xatəmül-ənbiya olaraq hudayət missiyası ilə, haqq yola dəvət vəzifəsi ilə bilavasitə əlaqəli məsələdir. Belə ki, Həzrət Rəsuli-Əkrəm (s) Nəcran məsihilərini İslama dəvət etmişdi. Onlar isə müəyyən bəhanələr gətirərək, bu təklifi qəbul etməmişdilər. Bundan sonra bir hadisələr baş vermşdi ki, çox geniş surətdə yayılaraq, milyonlarla insanın haqq yolunu seçməsinə kömək etmişdir.

Vaqiə belə olmuşdu. Nəcran - Yəmənlə sərhəddə yerləşən bir məntəqədir. Nəcranın əhalisi xaçpərəstlərdən ibarət idi. Peyğəmbərimiz (s) onların yanına təbliğatçılar göndərərək, öz İlahi missiyası ilə bağlı onları məlumatlandırdı və İslama dəvət etdi. İslam Peyğəmbərinin (s) göndərdiyi mübəlliğlər - təbliğatçılar Nəcranda kifayət qədər böyük sayda insanın sonuncu Peyğəmbərin (s) gətirdiyi dinə yönəlməsinə səbəb oldular. Amma nəcranlılar arasında böyük bir qrup da var idi ki, bu dəvəti cavablandırmadı. Rəsuli-Əkrəm (s) onlara məktub yazdı, İslamın haqq və sonuncu din olmasını onlara çatdırdı. Axı o Həzrət (s) bir millətə, bir ölkəyə gəlməmişdi. Bütün bəşəriyyəti hidayət etmək üçün məbus edilmişdi.

Nəcran məsihiləri bu məktuba cavab olaraq, Mədinəyə - Peyğəmbərimizin (s) yanına nümayəndə heyətini göndərdilər. Bu heyət 14 nəfərdən ibarət idi. Bu heyətin başında 3 nəfər ən nüfuzlu xristian ruhanisi dururdu.

## Həzrət Adəmin (ə) misalı

Heyət Mədinəyə çatır və Rəsuli-Əkrəmin (s) hüzuruna gəlir. Onların İslama dəvətin mahiyyəti ilə bağlı suallarının cavabında Peyğəmbəri-Əkrəm



(s) buyurur ki, dəvətin mahiyyəti - insanları tövhid (təkilahlıq) dininə dəvət etməkdir, yəni, onlara təklif etməkdir ki, Allahdan başqa ibadət ediləcək məbudun olmadığına və Həzrətin (s) nəbiliyinə şəhadət versinlər. Peyğəmbərimizin (s) İslama dəvətinə cavab olaraq, onlar Rəsuli-Əkrəmin (s) İsa peyğəmbər (ə) haqqında rəyini bilmək istədilər. Həzrət Peyğəmbər (s) onlara bildirdi ki, Həzrət Məryəmin oğlu İsa (ə) - Allahın Rəsuludur, Aləmlərin Rəbbinin peyğəmbəridir. Allah Təbarəkə və Təala Həzrət İsanı (ə) Öz elçilərindən biri kimi tanıdıb. Həzrət İsa (ə) - Allahın bəndəsidir və Allah tərəfindən xəlq edilmişdir.

Lakin xristian nəcranlılar bunu qəbul etmədilər və bəyan etdilər ki, Həzrət İsa (ə) atasız dünyaya gəldiyi üçün biz onu (nəüzübillah!) Tanrının oğlu kimi tanıyırıq.

**Bu haqda Rəsuli-Əkrəmə (s) vəhy nazil oldu:** "Həqiqətən, Allah yanında İsanın hekayəti (yaradılışın necəliyi baxımından) Adəmin hekayəti kimidir. Allah onu torpaqdan yaratdı, sonra ona "(canlı insan) ol!" dedi, o da oldu (... onların hər ikisi Allahın əzəli əmrilə, atasız insan oldular. Əgər belə bir iş ilahlığa dəlalət edirsə, gərək onların hər ikisi ilah olsunlar". ("Ali-İmran" surəsi, 59-cu ayə).

Yəni Allah Təala Həzrət Adəmi (ə) vasitəsiz, yəni ata-anasız yaratdığı kimi, Həzrət İsanı (ə) da vasitələrdən biri olmadan, yəni atasız olaraq dünyaya gətirmişdir. Əgər atasız dünyaya gəlmək insanın Tanrı olması deməkdirsə, nə üçün bu, təkcə Həzrət İsaya aid edilir? Nə üçün Həzrət Adəmə aid edilmir?

## Mübahilə təklifi

Lakin Nəcran məsihiləri bu məntiqi qəbul etmədilər. Daha doğrusu, qəbul etmək istəmədilər. Çünki bu dəlil, onların dünyagörüşlərini alt-üst edirdi və onların üzərinə gerçək araşdırma aparmaqla bağlı müəyyən vəzifələr qoyurdu.

Əlbəttə ki, əgər xəlq olunmuşlardan kimsə, Allah Təalanın hikməti üzündən, fərqli olaraq dünyaya gəlirsə, məgər bu, ilahlığın göstəricisidirmi?! Nəcran məsihiləri bu sadə məntiqi qəbul etmək istəmədilər. Onlar zahirdə İslamı qəbul etdiklərini dedilər. Peyğəmbərimiz (s) isə onlara bildirdi ki, siz gerçəkdə iman gətirməmisiniz. İslam - ürəklə qəbul etməyi şərtləndirən bir dindir. Belə olduqda, onlar İslamı qəbul etməkdən imtina edirlər.

**Beləliklə, nəcranlılar əks təklif irəli sürdülər. Onlar təklif etdilər ki, müəyyən bir yerdə, müəyyən bir vaxtda yığışaq və haqqın üzə çıxması, nahaqqın məhvi üçün qarğış edək. Bu zaman Peyğəmbərimizə (s) ayə nazil oldu:** "Buna görə də, sənə elm gəldikdən sonra, onun barəsində (Həzrət İsa haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: "Gəlin biz öz oğullarımızı və siz öz oğullarınızı, biz öz qadınlarımızı və siz öz qadınlarınızı, biz özümüzü (bizim canımız kimi olan kəsləri) və siz də özünüzü çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə, Allahın lənətini yalançılara yağdıraq"". *("Ali-İmran" surəsi, 61-ci ayə).*

Çox incə bir mətləbdir ki, görəsən Peyğəmbər (s) "oğullarımız" olaraq kimləri özü ilə götürəcək, "qadınlarımız" dedikdə kimləri götürəcək və "özümüz" dedikdə kimi özü ilə götürəcək?

Nəcran məsihiləri bu təklifin ədalətliliyi ilə razılaşırlar və mübahilə üçün vaxt və məkan müəyyən edərək, hazırlaşmağa gedirlər.

## Necə bir heyət gələcək?

Axşam yetişir. Məsihilər müşavirə təşkil edərək, sabahkı günü müzakirə edirlər. Bunların başbilənləri deyirlər ki, əgər sabah yeni dini gətirən, peyğəmbərliyə iddialı olan həmin şəxs öz səhabələri ilə gəlsə, deməli o, İlahi peyğəmbər deyil. Amma əgər öz ev əhli ilə gəlsə, demək onun iddiası həqiqidir və onda biz gərək bu işə getməyək. O zaman bizim mübahilə etməyimiz pis olar. Çünki o, öz ev əhlini bu işə dəvət etsə və hazır olsa ki, onları fəda etsin, hazır olsa ki, onlar İlahi əzaba düçar olsun - deməli, həqiqi peyğəmbərdir və iddiası həqiqidir. Bu, ona dəlalət edir ki, o, öz iddiasına arxayındır və yəqini var, tam xatircəmliyi var ki, İlahi əzab ona nazil olmayacaqdır.

Nəcranlılar bu düşüncə ilə səhəri açırlar və mübahilə olunacaq yerə gedirlər. Həmin qərarlaşdıqları yerə çatanda görürlər ki, İslam Peyğəmbəri (s) gəlir və qucağında bir uşaq var. Başqa bir uşağın da əlindən tutub, yanında gətirir. Onun ardınca da nuranikdə tayı-bərabəri olmayan bir xanım və bir kişi gəlir.

Nəcranlılar görürlər ki, gələn cəmin xüsusi bir mənəvi halıti, böyüklüyü, vüqarı vardır. Xüsusi bir mənəvi heybətlə həmin məkana yaxınlaşırlar.

**Nəcranlılar görürlər ki, Rəsuli-Əkrəm (s) yanındakı mübarək cəmə müraciətlə:** "Hər zaman ki, mən nifrin dedim, siz "amin" deyərsiniz", - deyə buyurur.

Nəcranlılar mübahilə səhnəsini müşahidə etməyə gələn mədinənilərdən soruşurlar ki, bəs Rəsuli-Əkrəmin (s) yanında gələn insanlar kimdir? Mədinəlilər cavab verirlər ki, bunlar - Həzrət Peyğəmbərin (s) yaxınlarıdır, Əhli-Beytidir (ə). Və izah verirlər ki, nuraniyyət və əzəmət təcəssümü olan o kişi - Həzrət Əlidir (ə). Nuraniyyət və iffət təcəssümü olan o xanım - qızı Həzrət Fatimədir (s.ə). Qucağında olan o məsum körpə - nəvəsi İmam Hüseyndir (ə). Əlindən tutduğu o məsum uşaq - böyük nəvəsi İmam Həsəndir (ə).

**Vəziyyəti belə görən məsihi ruhanilərin böyüyü bildirdi:** "Mən özümü əzabın bir neçə addımlığında görürəm". Bu sözlər tarixə düşmüşdür. Həzrət Peyğəmbəri (s) və Əhli-Beytini (ə) tanımayan, amma onların sonsuz nuraniyyətini və mənəvi halətlərini görərək, onların mənəvi üstünlüyünü birmənalı olaraq qəbul edənlərin şəhadətidir bu. Nuraniyyət və mənəviyyat zirvəsi qarşısında təzim edənin şəhadətidir bu.

Bu hadisə hicrətin 10-cu ili zilhiccə ayının 24-də baş vermişdir. İslam Peyğəmbəri (s) öz Əhli-Beyti (ə) ilə Məscidül-İcabə yerləşən məkana gəldilər. Amma Nəcran nümayəndələri onları gördükdə dedilər ki, əgər Rəsuli-Əkrəmin hər nifrininə bu insanlar "amin" desələr, onların kökü kəsilər. Və mübahilədən imtina edərək, İslamın himayəsi altına keçirlər.

## Ali-Əba (ə) hadisəsi

Bəli, Həzrət Peyğəmbər (s) bu hadisədə İmam Həsənlə İmam Hüseyni - övladları, Həzrət Fatiməni - xanım nümayəndə və Həzrət Əlini öz canı kimi götürüb "mübahilə"yə, yəni, ayədə işarə olunan qarşılıqlı nifrin etmə mərasiminə apardı. Amma bundan öncə, mübahiləyə getməzdən əvvəl, bir əbanı çiyninə saldı və Həzrət Əlini (ə), xanım Fatiməyi-Zəhranı (s.ə), İmam Həsəni (ə) və İmam Hüseyni (ə) əbanın altına salıb, dedi: "İlahi, hər peyğəmbərin əhi-beyti olmuşdur ki, ona insanların arasında ən yaxınları olmuşlar. İlahi, bunlar da mənim əhli-beytimdir (ev əhlimdir). Onlardan şəkk və günahı uzaqlaşdır. Onları bütün pisliklədən paklandır".

**Bu zaman Həzrət Cəbrayıl nazil oldu və onlar haqqında İlahi vəhyi gətirdi:** "Həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz Əhli-Beytdən (əqidə, əxlaq və əməllərdə) hər cür pisliyi təmizləmək və sizi - paklığın bütün cəhətlərində - pak etmək istəyir". *("Əhzab" surəsi, 33-cü ayə).*

Mübahilə hadisəsi tarixi baxımdan çox önəmli hadisədir. Amma onun əsas önəmliliyi təkcə tarixi fakt olmaqlığı ilə bitmir. Bəlkə də bundan daha artıq əhəmiyyətlisi - müsəlmanlara Peyğəmbərimizin (s) haqq yolunu tapmaqda yardım etməkdir. Belə ki, insanlara Peyğəmbərin (s) ən yaxın insanlarının kim olduğunun bildirilməsi ilə, yəni, dini təmsil edən bir məsələdə, peyğəmbərlik iddiasını təsdiqləyən bir missiyada özü ilə götürdyü insanların tanıtdırılması ilə haqq yolunun təqdimatı edilir. Müsəlmanlara haqq yol tanıtdırılır. Kimlərdən Rəsuli-Əkrəmin (s) mənəvi irsini öyrənməli olduqları iman əhlinin diqqətinə çatdırılır.

"Oğullarımız" dedikdə, Həsən və Hüseyni təqdim edir ümmətə Rəsuli-Əkrəm (s). "Qadınlarımız" deyiləndə, Həzrət Fatiməni (s.ə) tanıtdırır ümmətə. Bütün möminə qadınların, İslamı təmsil edə biləcək qadınların ünvanı qismində tanıtdırılır Həzrət Zəhra (s.ə). "Biz özümüz" dedikdə, "canımız" deyildikdə - Həzrət Əlini (ə) təqdim edir bəşəriyyətə. Və bu nuraniyyəti təsdiqləyən nəcranlılar geri çəkilir və bu mənəvi cəmin bütün təbərrüklüyünü bir daha təsdiqləyirlər.

## Rüku halında sədəqə

**Zilhiccə ayının 24-də digər bir əlamətdar hadisə də baş verib. Həmin gün Həzrət Əli (ə) namaz qıldığı zaman məscidə dilənçi daxil olub, sədəqə istəyir. Həzrət Əi (ə) namazın rükusunda olan bir vəziyyətdə mübarək əlini dilənçiyə tərəf uzadır və işarə ilə barmağındakı qiymətli üzüyü götürməyi bildirir. Dilənçi həmin üzüyü götürür. Bu zaman ayə nazil olur:** "Həqiqətən sizin başçınız və işlərinizin ixtiyar sahibi Allah, onun Peyğəmbəri və o iman gətirənlərdir ki, namaz qılıb rüku halında zəkat verirlər". *("Maidə" surəsi, ayə 55)*

İslamın hər 2 məzhəbinin alimləri bu ayənin şərhində nəql edilən hədislərdə təsdiq etmişlər ki, cəm şəkildə buyurulan bu ayənin yeganə nümunəsi - Həzrət Əlidir (ə) və onun rüku halında üzük bağışlama hadisəsidir.

Nəql edirlər ki, bu ayə nazil olan kimi Peyğəmbər (s) məscidə getdi. Bu zaman bir dilənçinin sevincək halda məsciddən çıxdığını gördü. Həzrət (s) bunun səbəbini soruşduqda, dilənçi namaz halında olan bir şəxsi göstərib dedi: "O, rükuda olduğu zaman əlini mənə tərəf uzadıb, barmağındakı bu üzüyü mənə verdi". Peyğəmbərimiz (s) namaz halında olan şəxsin Həzrət Əli (ə) olduğunu görəndə, təkbir ("Allahu əkbər!") deyərək buyurdu: "Ayə Əlinin barəsində nazil olmuşdur!".

## Mübahilə gününün əməlləri

Zilhiccə ayının 24-də bir neçə bəyənilən əməl var.

Bu sırada müstəhəb qüsl almaq, oruc tutmaq, 2-rükətli namaz qılmaq kimi əməllər təqdim olunub. Bu namazın hər rükətində "Həmd" surəsindən sonra 10 dəfə "İxlas" surəsi, 10 dəfə "Ayətül-kursi", 10 dəfə "Qədr" surəsini oxumaq lazımdır.

Eləcə də, həmin gün "Mübahilə" duasını oxumaq bəyənilmişdir. Həzrət Əlini (ə) bu gün ziyarət etmək də çox bəyənilmişdir. Bilavasitə ziyarət edə bilməyənlər, müvafiq ziyarətnamə oxumaq kimi imkanlardan yararlana bilirlər.

Bundan əlavə, həmin gün fəqir insanlara sədəqə vermək çox bəyənilmişdir. Əlbəttə ki, sədəqə vermək İslam dini tərəfindən hər zaman bəyənilir, amma xüsusi günlər var ki, bunlarda əməllərin savabı daha çoxdur.

## O cümlədən:

**- gözəl və təmiz paltar geyinmək;**

**- xoş ətir vurmaq;**

**- möminlərin təqsirlərindən keçmək, onları sevindirmək;**

**- möminlərin hacətlərini yerinə yetirmək;**

**- sileyi-rəhm etmək;**

**- möminlərə iftar yeməyi vermək;**

**- möminlərin ziyarətinə getmək;**

**- təbəssüm etmək;**

**- möminlərə hədiyyə göndərmək;**

**- çoxlu salavat göndərmək;**

**- bunlar bəyənilən əməllərdəndir.**

**Allahım! Bizləri Əhli-Beytin (ə) həqiqi davamçılarından qərar ver! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 190 (6804) 15 sentyabr 2017

# Paltar həvəskarından qəribə jest

Avstraliyada yaşayan Mari Saba adlı qadın paltarlara qarşı olan marağı ilə tanınır. Gənc qadın bir il ərzində 365 yeni paltar alaraq hər kəsi şoka salıb. 26 yaşlı qadın 1 il ərzində 365 paltar alacağı haqda özünə söz verib. Bundan sonra hər gün yeni bir paltar alıb. Nəhayət, bir ilin sonunda 365 ədəd paltara sahib olub. O, geyindiyi qeyri-adi paltarlarla işə gedib, avtobusa minib və əyləncə məkanlarında olub. İlin sonunda isə böyük bir əyləncə gecəsi təşkil edib. Mari Saba paltarlarını dostlarına hədiyyə edib. Mari hər birini 400 dollara aldığı paltarları dostlarına payladığı üçün xoşbəxt olduğunu dilə gətirib.



## “Uzanan polislər” çinliləri bezdirib



Çinin paytaxtı Pekində, içərisində yüzlərlə süni maneələr olan küçə yaranıb. Bu, maşınların hərəkət sürətini azaltmaq üçündür. Onlara el dilində “uzanan polislər” deyilir. Bu barədə lenta.ru saytı “Global Times” saytına istinadən xəbər verir. Nəşr öz twitter səhifəsində şəhərin cənub-qərbində həyata keçirdiyi çəkilişi yayımlayıb. Küçənin bir kilometrlik hissəsində hər yarım metrdən bir “uzanan polislər”ə rast gəlmək olur. Yük maşınları, motosikletlər çoxsaylı əngəlləri aşırlar, bu zaman da xeyli manevr etmək zorunda qalırlar. Bu qədər çoxlu sayda məhdudiyyətin olmasının səbəbi isə bəlli deyil.

2016-cı ildən Çində qarşı tərəfdən gələn sürücüyə mane olaraq, uzaq işıqlarını yandıran şəxslərə qarşı xüsusi cəza nəzərdə tutulub. Bu pozuntuya yol verib saxlanılanları maşın qarşısında otuzdurub, faraları son həddə qədər yandıraraq, bir dəqiqə boyunca ona baxmağa məcbur edirlər. Ümumiyyətlə, Çin nəqliyyatında bu cür cəza metodlarına zaman-zaman rast gəlmək mümkündür.

## Daha çox kişilər yalan danışırmış

Türkiyənin Hacıtəpə Universitetinin tibb fakültəsinin müəllimi, alim Serkan Karaismayıloğlu sübut edib ki, qadınlar heç də kişilərdən çox danışmırmış. Onun araşdırmasına görə, qadınlar gündə 16 min 215, kişilər isə 15 min 669 sözdən istifadə edir. Alim həmçinin söyləyib ki, beynin də cinsiyyəti var və bu, ana bətnində məruz qalınan testeronla ölçülür: “Kişilərin az danışdığını düşünən varsa, futbol proqramlarını izləsin. Qadınlarda eşitmə və nitq mərkəzləri daha yaxşı inkişaf edib. Kişilərin beyin quruluşu isə eşitməyə uyğun deyil. Belə ki, beynin sol yarımkürəsi daha detallıdır. Danışma, eşitmə və mühakimə solda daha geniş inkişaf edib. Kişidə solda inkişaf gecikdiyi üçün eşitmə məsələsi onlarda problemlidir. Xüsusən də hansısa işlə məşğul olanda sizi yaxşı eşitməyə bilər. Televizora baxanda nəsə desəniz, sizi eşitməyəcək. Qadınlara məsləhətim: kişiyə nəsə demək istəyirsizsə, qabağında oturun, başını əlinizlə tutun və mümkünsə, çox açıq-saçıq geyinməyin, sözünüzü deyin”.



## Stulun içindən brilyant tapıb varlandılar



Şotlandiyanın Biqqar şəhərində bir cütlük 5 funt sterlinqə satın aldığı stulda 5 min funt sterlinq dəyərində brilliant bəzək tapıb. Anjela Milnet və onun həyat yoldaşı Enqus bu stulu 10 il əvvəl bir auksionda alıblar. Həmin vaxt onların imkanı olmadığı üçün başqa stullar ala bilməyiblər və onu çardağa yerləşdiriblər. Aradan 6 il keçəndən sonra cütlük həmin stulu çardaqdan götürüblər. Bir müddət sonra Enqus həyat yoldaşına evlilik ildönümü münasibətilə brilyant qaşlı üzük hədiyyə edib. Daha sonra sevgililər günündə brilyant qaşlı sırğa hədiyyə edib. Pasxa bayramındakı hədiyyə isə qiymətli daşlarla bəzədilmiş sancaq olub. Sonradan məlum olub ki, ərin bu cür səxavətli davranmasına səbəb stulun içindən tapdığı brilyantlar olub. O, bu barədə öncə xanımına deyib, daha sonra isə məşhur bir proqramda danışıb.

## Qoroskop




**QOÇ** - Fəaliyyət göstərdiyiniz sahələrdə həmkarlarınızla mübahisələriniz mümkündür. Bunu nəzərə alıb çılğınlıq göstərməyin. Rahatlanmaq istəyirsinizsə, axşam mütləq qonaq gedin.

**BUĞA** - Ciddi işlərin həllini təxirə salın. Xüsusən də pulla bağlı sövdələşmələrdən imtina etməyiniz məsləhətdir. Əks təqdirdə, cəhdləriniz uğursuz olacaq. İstirahətinizə fikir verin.

**ƏKİZLƏR** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Maraqlı hadisələr, işgüzar sövdələşmələr, eləcə də qənaətbəxş təkliflər ürəyinizcə olacaq. Bir şərtlə ki, xırdaçılığa yol verməyəsiniz.

**XƏRÇƏNG** - Öz gücünüzə inanın. Kənar rəylərə yalnız qulaq asın. Əməli işlərdə isə öz düşüncələrinizi əsas tutun. Bu gün maraqlı və vacib şəxslərlə görüşəcəyiniz də istisna olunmur.

**ŞİR** - Olduqca riskli gündür. Planlarınızı əvvəlcədən təyin edin. Müştərək fəaliyyətdə ədalət prinsiplərinə riayət edin. İnadkarlıq etməkdənsə qarşı tərəfin obyektiv rəyini nəzərə alın.

**QIZ** - Ulduzlar xəbər verir ki, indiki məqamda sizə diqqət və qayğı lazımdır. Bunu hamı bilməsə də, bilənlər az deyil və inşallah, saat 14-dən sonra tələbat duyduğunuz qayğıkeşliyi görəcəksiniz.

**TƏRƏZİ** - Bürcünüzün “hakimiyyətə” yaxınlaşdığı bu ərəfədə vəziyyətiniz qənaətbəxş olacaq. Yeni təkliflər almaqla, perspektivlərinizdə əməli dəyişikliklər edə bilərsiniz. Səfərə çıxmayın.

**ƏQRƏB** - Daxili orqanlarınıza diqqəti artırın. Göy qübbəsi qarşınıza çıxan şanslardan faydalanmağı vacib sayır. Bu təqvimdə tanımadığınız ünvanlara getməyin. Uzaq səfərlər də məsləhət deyil.

**OXATAN** - Atdığınız hər bir addıma məxfilik donu geyindirin. Çünki bu təqvimdə bütün cəhdləriniz müəmmalı tərzdə təqdir edilməlidir. Yüksək dairələrdən sizə kömək etmək istəyənlər var.

**OĞLAQ** - Astroloji göstəricilər bu təqvimdən xeyli razı qalacağınızı bəyan edir. Bir tərəfdən maddi durumunuzun yüksəlişi, digər tərəfdənsə maraqlı adamlarla görüşləriniz sizi sevindirəcək.

**SUTÖKƏN** - Mənəvi rahatlığa qovuşmaq üçün gözəl imkanlarınız var. Ətrafınızda cərəyan edən hər bir hadisə sizə xüsusi zövq verəcək. Günün ikinci yarısında sağlıq durumunuzu, xüsusilə ürəyinizi qoruyun.

**BALIQLAR** - İş prinsipində bəzi xoşagəlməzliklər labüddür. Rəhbərlərinizlə mübahisə aparmayın. Öhdənizə düşən vəzifələrin həllini sürətləndirin. Axşam evə hava qaralmamışdan əvvəl gedin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sevgilindən yarım metr məsafədə dayanmağa məcbursan...



Çində şagirdlər üçün qəribə qərar qəbul edilib. Hangzhou şəhərindəki məktəblərin birində qız və oğlan şagirdlərin bir-birilərinə yaxınlaşması qadağan edilib. Venzhou şəhərində isə yaxın əlaqə qadağan edilib. Sosial media vasitəsilə yayılan xəbərlər dövlətə bağlı “Çin Gəncliyi” qəzetində “mənasız, ağılsız, qanunlara zidd qərar” kimi təqdim edilib. Məktəb müdirləri isə oğlanlarla qızların bir-birilərinə yaxınlaşmasını aralarında sevgi yaranmasına və dərs oxumalarının pisləşməsinə əngəl olmaq üçün qadağan etdiklərini deyiblər. Çində məktəb dövründə başlayan sevgiləri “Zao lian” (erkən eşq) adlandırırlar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100